‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ



28 FEVRAL ŞƏNBƏ 2026 | 08 (4259)

Qiyməti - 40 qəpik www.kaspi.az



## İKİTƏRƏFLİ MÜNASİBƏTLƏR GÜCLƏNDİRİLƏCƏK

Efiopiyanın Baş naziri Abiy Əhməd Əlinin Azərbaycana səfəri çərçivəsində bir sıra sənədlər imzalanıb. Tərəflər ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsində maraqlı olduqlarını bildiriblər.

SƏHİFƏ 2-də



## KARTLA ALANDA BAHA, NAĞD UCUZ

Bəzi mağazalarda kartla ödəniş zamanı məhsullar daha baha satılır, nağd ödənişə üstünlük verilir. Mütəxəssislər bunu vergidən yayınma cəhdi və bazarda qiymətlərin süni şəkildə artırılması kimi dəyərləndirirlər.

SƏHİFƏ 6-da



## ƏMLAK BAZARINDAKI ƏCNƏBİ ALICILAR

Xarici vətəndaşların daşınmaz əmlak bazarına yönəltdiyi vəsaitin illik həcmi təxminən 200-300 milyon manat qiymətləndirilir. Bu məbləğ tikinti sektoruna xarici investisiya axını baxımından əhəmiyyətlidir.

SƏHİFƏ 11-də



## QAPALI BİNA, AÇIQ SUALLAR

Bakı Dövlət Sirkinin binası xeyli müddətdir ki, qapalıdır. Sirk hazırda fəaliyyətini Avropadan gətirilmiş və Dənizkənarı Bulvar ərazisində - Su İdman Sarayının yanında quraşdırılmış sirk meydançasında davam etdirir.

SƏHİFƏ 12-də




PREZİDENT İLHAM ƏLİYEV XOCALI SOYQIRIMI MEMORİALININ AÇILIŞINI EDİB

# “XOCALI SOYQIRIMINI HEÇ VAXT UNUTMAMALIYIQ”

Soyqırımının 34-cü ildönümü ərəfəsində Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri növbəti dəfə Xocalıya səfər etdilər. Səfər çərçivəsində Xocalı Soyqırımı Memorialının açılışı reallaşdı.

### AZƏRBAYCAN XALQI ÜÇÜN ƏN BÖYÜK FACİƏ

Prezident İlham Əliyev bildirdi ki, Xocalı soyqırımı Ermənistan dövləti tərəfindən insanlığa və bəşəriyyətə qarşı törədilmiş qanlı hərbi cinayətdir: “Azərbaycan xalqı üçün bu, ən böyük faciədir. Bu faciəni dünya ictimaiyyətinə çatdırmaq üçün, bizim haqq işimizi dünya birliyinə təqdim etmək üçün həm Azərbaycan dövləti, həm ictimai təşkilatlar, qeyri-hökumət təşkilatları, demək olar ki, bir çox qurumlar fəal çalışıblar”.

### “BAX BU, ƏDALƏTİN TAM TƏNTƏNƏSİDİR”

Bu gün Xocalı soyqırımı qatillərinin bir hissəsi artıq layiqli cəzalarını alıblar: “Bax bu, ədalətin tam təntənəsidir. Ədaləti biz özümüz təmin etdik, xalqımız bir yumruq kimi birləşərək həm 2020-ci, həm 2023-cü illərdə böyük qəhrəmanlıq göstərmişdir”.

SƏHİFƏ 3-də

“BİZDƏ “UŞAQDIR, BACARMAZ” ANLAYIŞI OLMAYIB”

# “SIFIRDAN YARATMAQ PROSESİNDƏN ZÖVQ ALIRAM”



Prezident mükafatçısı Sərxan Ağadadaşov Qusarda anadan olub. 2016-cı ildə Azərbaycan Aviasiya Akademiyasının Hava hərəkətinin idarə olunması mühəndisliyi ixtisasında bakalavr və magistratura pilləsi üzrə təhsil alıb. Hazırda Aviasiya Akademiyasında doktorantura pilləsində təhsil alır. Eyni zamanda Akademiyanın Pilotsuz Uçuş Aparatları (PUA) laboratoriyasında qrup rəhbəri və müəllim kimi fəaliyyət göstərir. 2020-ci ildən, xüsusilə Vətən müharibəsi dövründən başlayaraq PUA-ların istehsalı və təmiri sahəsində çalışıb.

SƏHİFƏ 8-9-da



## RƏQƏMSAL İNKİŞAF ŞURASI YARADILDI

Prezident İlham Əliyev rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Fərman imzalayıb.

SƏHİFƏ 2-də



## DEPORTASİYA VƏ SOYQIRIMINA MƏRUZ QALAN AİLƏ

“Şahidlərin sonradan söylədiklərindən belə məlum oldu ki, atamı və iki qardaşımı aparıb erməni məzarı üstündə başlarını kəsiblər. Ardınca da digər əsirlərə bir xəndək qazdırıb onları orada basdırıblar”.

SƏHİFƏ 4-də



## UNİVERSİTETLƏRDƏ DƏRS SAATI AZALDILMALIDIRMI?

Universitet tələbələrinin bir qismi 90 dəqiqəlik akademik dərs saatının 60 dəqiqəyə endirilməsinin tərəfdarıdır. Tələbələrin bu istəyinə qoşulan müəllimlər də az deyil.

SƏHİFƏ 7-də



## GƏNCLİK TƏCRÜBƏNİ ÜSTƏLƏDİ

Bugünlərdə başa çatan şahmat üzrə Azərbaycan çempionatında 46 şahmatçı qalib adı uğrunda mübarizə apardı. Kişilərdə 30, qadınlarda isə 16 iştirakçı gücünü sınadı.

SƏHİFƏ 16-da



Bakı dünya forumuna hazırdır

Səhifə 10-da



SOCAR regional mərkəz yaradacaq

Səhifə 10-da



“Taliban”ın dünyanı təəccübləndirən 10 qadağası

Səhifə 5-də



Yaddaşlarda yaşayan istiqlal fədaisi

Səhifə 14-də



Dənizdən gələn delikates

Səhifə 13-də

Kaspi ÜÇ ƏSRİN QƏZETİ





# Rəqəmsal İnkişaf Şurası yaradıldı

Prezident İlham Əliyev rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Fərman imzalayıb. Fərmana əsasən, Azərbaycanın Rəqəmsal İnkişaf Şurası yaradılıb. Həmçinin şuranın aşağıdakı tərkibi təsdiq edilib:

Şuranın sədri

Azərbaycanın Birinci vitse-prezidenti

Şuranın üzvləri:

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

Azərbaycan Respublikasının elm və təhsil naziri

Azərbaycan Respublikasının ədliyyə naziri

Azərbaycan Respublikasının maliyyə naziri

Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Azərbaycan Respublikası Mərkəzi Bankının sədri

Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru.

Şuranın fəaliyyətinin təşkili məqsədilə Şuranın Katibliyi yaradılacaq və Katiblik funksiyasının həyata keçirilməsi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə həvalə ediləcək.

Şura rəqəmsal inkişaf sahəsi üzrə dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin icrasına nəzarəti və dövlət orqanları (qurumları) arasında siyasətin əlaqələndirilməsini təmin etməli, dövlət orqanları (qurumları) tərəfindən icra olunan layihələrin bu sahədə mövcud strateji məqsədlərə uyğunluğunun təmin edilməsinə nəzarəti həyata keçirməli, dövlət orqanlarının (qurumlarının) təklifləri və beynəlxalq təşkilatların tövsiyələri nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı tədbirlər görməlidir. Şura fəaliyyəti barədə ildə bir dəfə Azərbaycan Prezidentinə məlumat verməlidir.



# İKİTƏRƏFLİ MÜNASİBƏTLƏR GÜCLƏNDİRİLƏCƏK

Efiopiyanın Baş naziri Abiy Əhməd Əlinin Azərbaycana səfəri çərçivəsində bir sıra sənədlər imzalanıb. Tərəflər ikitərəfli əlaqələrin daha da inkişaf etdiril-məsində maraqlı olduqlarını bildiriblər.

Fevralın 27-da Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əlinin rəsmi qarşılanma mərasimi olub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Efiopiyanın Baş naziri Abiy Əhməd Əlini və birinci xanım Zinaş Tayaçevi qarşılayıblar. Daha sonra Prezident İlham Əliyevin Efiopiyanın Baş naziri Abiy Əhməd Əli ilə təkbətək görüşü olub.

## "SİZİN RƏHBƏRLİYİNİZLƏ EFİOPİYA UĞURLA İNKİŞAF EDİR"

Müzakirələr nümayəndə heyətlərinin iştirakı ilə davam etdirilib. Prezident İlham Əliyev Baş nazirə bu yaxınlarda Efiopiyaya səfər etmiş qızı Leylaya göstərdiyi qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib: "Sizin rəhbərliyinizlə Efiopiya uğurla inkişaf edir, beynəlxalq birliyin vacib bir üzvüdür və iqtisadiyyatınız da artır. Əlbəttə biz ikitərəfli münasibətlərimizin siyasi və iqtisadi, energetika, kənd təsərrüfatı, mədəniyyət sahələrində gücləndirilməsində çox maraqlıyıq. Bir sözlə, əminəm ki, bu səfər bizim gələcək uğurlu əməkdaşlığımız üçün vacib amil olacaq və ölkələrimizə, xalqlarımıza çox yaxşı nəticələr verəcək".



## "BAKI GÖZLƏDİYİMDƏN QAT-QAT GÖZƏL ŞƏHƏRDİR"

Baş nazir Abiy Əhməd Əli bildirib ki, Azərbaycanda olmaqdan şərəf hissi duyur: "Bakı gözlədiyimdən qat-qat təmiz və gözəl şəhərdir. Bu isə ölkə rəhbərliyinin buna sadiqliyini və yanaşmasını göstərir. Bu, məni çox sevindirir. Həmçinin Sizi təbrik etmək istərdim ki, dostlarınızın hamısı Sizinlə qürur duyur və Sizdən bir çox şeyləri öyrənirlər. Gözəl ölkənizlə münasibətlərimiz, qeyd etdiyiniz kimi, hələ sadəcə başlayır. Bununla belə, biz bu münasibətlərin strukturlaşmış, əməli və aydın nəticələrə yönəlmiş olmasını istəyirik. İki ölkə arasında çoxlu ortaq maraqlar var. İkimiz arasında, həmçinin çox uzlaşma mövcuddur".

## TURİZM, MƏDƏNİYYƏT, TƏHSİL...

Söhbət zamanı Azərbaycanla Efiopiya arasında siyasi dialoqun inkişafından məmnunluq ifadə olunub, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunulub. Həmçinin kənd təsərrüfatı, mədən sənayesi, enerji, energetika, rəqəmsal transformasiya, süni intellekt sahələrində birgə kadr hazırlığı, turizm, mədəniyyət, təhsil, o cümlədən tələbə mübadiləsinin həyata keçirilməsi üzrə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Görüşdə, eyni zamanda, Efiopiyada "ASAN xidmət" konsepsiyası əsasında mərkəzlərin uğurla fəaliyyət göstərməsi, həmçinin "DOST" təcrübəsinin tətbiqi ilə bağlı müzakirələrin aparıldığı qeyd edilib.

## TƏRƏFLƏR ARASINDA BİRGƏ SƏNƏDLƏR İMZALANIB

Daha sonra Prezident İlham Əliyevin və Baş nazir Abiy Əhməd Əlinin iştirakı ilə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Efiopiyanın xarici işlər naziri Qedion Timoteos "Azərbaycan Respublikası ilə Efiopiya Federativ Demokratik Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"i və "Birləşmiş Millətlər Təşkilatının İqlim Konfransının (COP32) otuz ikinci sessiyasının təşkilində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalayıblar.

Qeyd edək ki, Efiopiyanın Baş nazirinin ölkəmizə səfəri çərçivəsində "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Efiopiya Federativ Demokratik Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Efiopiyanın Federal Etika və Antikorrupsiya Komissiyası arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi ilə Efiopiya İnvestisiya Komissiyası arasında Anlaşma Memorandumu" və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC ilə Efiopiya Yayım Korporasiyası arasında Anlaşma Memorandumu" imzalanıb.

# "XOCALI SOYQIRIMINI HEÇ VAXT UNUTMAMALIYIQ"

**Soyqırımının 34-cü ildönümü ərəfəsində Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri növbəti dəfə Xocalıya səfər etdilər. Səfər çərçivəsində Xocalı Soyqırımı Memorialının açılışı reallaşdı.**





**AZAD ƏLİYEV**
azad.eliyev@kaspi.az

Xocalı soyqırımının 34 ili tamam oldu. Artıq iki ildir ki, soyqırımı qurbanlarının xatirəsini doğma Xocalıda anırıq. 2023-cü ilin antiterror əməliyyatları nəticəsində dünyanın ən dəhşətli bəşəri cinayətlərindən sayılan, "Əsrin faciəsi" adlandırılan, yüzlərlə günahsız dinc insanın, qadınların, uşaqların amansızlıqla qətlə yetirildiyi Xocalıda da suverenliyimiz tam bərqərar oldu. Soyqırımı qurbanlarının qisasını isə Azərbaycan döyüş meydanında erməni faşizminin belini qıraraq aldı.

### "AZƏRBAYCAN XALQI ÜÇÜN BU, ƏN BÖYÜK FACİƏDİR"

Soyqırımının 34-cü ili ərəfəsində Prezident İlham Əliyev növbəti dəfə Xocalıya səfər etdi. Xocalı Soyqırımı Memorialının açılışı reallaşdı. Sakinlərlə görüşü zamanı dövlət başçısı bildirdi ki, Xocalı soyqırımı Ermənistan dövləti tərəfindən azərbaycanlılara qarşı, insanlığa qarşı, bəşəriyyətə qarşı törədilmiş qanlı hərbi cinayətdir. Bunun məsuliyyətini Ermənistan dövləti daşıyır: "Azərbaycan xalqı üçün bu, ən böyük faciədir. Bu faciəni dünya ictimaiyyətinə çatdırmaq üçün, bizim haqq işimizi dünya birliyinə təqdim etmək üçün həm Azərbaycan dövləti, həm ictimai təşkilatlar, qeyri-hökumət təşkilatları, demək olar ki, bir çox qurumlar fəal çalışıblar. Burada xüsusilə Heydər Əliyev Fondunun fəaliyyətini qeyd etmək istərdim. Fond yarandıqdan dərhal sonra "Xocalıya ədalət!" genişmiqyaslı hərəkatına start verdi. Bu təşəbbüsü Fondun vitse-prezidenti Leyla Əliyeva həyata keçirirdi. Son 20 il ərzində onun təşəbbüsü ilə dünyanın bir çox ölkələrində bir çox tədbirlər, təqdimatlar, simpoziumlar, konfranslar keçirilmişdir, bir çox kitablar, broşürlər, bukletlər dərc edilmişdir. Çünki Ermənistan dövləti, dünya ermənilivi və dünya ermənilivinin, Ermənistan dövlətinin arxasında duran dövlətlər bu qanlı faciəni ört-basdır etməyə çalışırdılar. Hətta erməni təbliğatçıları Azərbaycanı bu faciədə günahlandırmağa çalışırdılar. Əgər biz öz haqq səsimizi ucaltmasaydıq, bu gün bəlkə də dünyada Xocalı soyqırımı ilə bağlı həqiqətə uyğun məlumat olmayacaqdı. Məhz bizim təkidli səylərimiz nəticəsində artıq 20-yə yaxın ölkə Xocalı soyqırımını soyqırımı kimi rəsmən tanıyıb və bu proses davam etdirilir".

### "BAX BU, ƏDALƏTİN TAM TƏNTƏNƏSİDİR"

Bu gün Xocalı soyqırımı qatillərinin bir hissəsi artıq layiqli cəzalarını alıblar. Prezident İlham Əliyevin də vurğuladığı kimi, Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində hərbi cinayətkarların bir hissəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən məhv edilib, bir hissəsi, xüsusilə separatçıların liderləri sayılan ünsürlər isə müxtəlif dövrlərdə saxlanılıb və məhkəmə qarşısına çıxarılıb: "Bax bu, ədalətin tam təntənəsidir. Ədaləti biz özümüz təmin etdik, xalqımız bir yumruq kimi birləşərək həm 2020-ci, həm 2023-cü illərdə böyük qəhrəmanlıq göstərmişdir. Biz ədaləti Silahlı Qüvvələrimizin peşəkarlığı, fədakarlığı, rəşadəti hesabına özümüz təmin etdik. Əlbəttə ki, hərbi cinayətkarları ədalət məhkəməsinə gətirmək və ədalətli məhkəməni təşkil etmək, yenə də deyirəm, bizim ədalətimizin son nöqtəsi idi.

Dünyada nadir halda ölkələr tapılar ki, həm ədalətli müharibədə tam və mütləq qələbə qazansın, həm öz ərazi bütövlüyünü və suverenliyini hər qarış torpağı azad edərək özü təmin etsin və müharibə cinayətkarlarını məhkəmə qarşısına gətirsin. Bunu biz etdik - Azərbaycan dövləti. Bizim iradəmiz, deyə bilərəm ki, əyilməz iradəmiz bunu təmin etdi".

## "HƏMİŞƏ DÜŞMƏN BİZDƏN QORXMALIDIR"




Prezident qeyd edib ki, Memorial Kompleksin məhz Xocalıda açılışı ədalətin təntənəsidir: "Çünki mən bunu iki il bundan əvvəl təməlqoyma mərasimində demişdim. Xocalılılarla birlikdə bu kompleksin təməlini qoyduq. O vaxt demişdim ki, Heydər Əliyev Fondu tərəfindən bu layihə çoxdan hazır idi, bax necə var, necə tikilib, elə də nəzərdə tutulmuşdu, Bakıda yer də seçilmişdi və artıq mənim son qərarım lazım idi ki, biz bunun inşasına başlayaq. Məni hər dəfə nə isə bundan çəkindirirdi. Sonra başa düşdüm o nə idi. O da inam idi ki, gün gələcək və bu Memorial Kompleksi biz Xocalıda quracağıq və belə də oldu. Bu Kompleks silinməz yaddaşımızın təcəssümü olacaq. Biz Xocalı soyqırımını heç vaxt unutmamalıyıq. Ermənistan dövlətinin vəhşiliklərini heç vaxt unutmamalıyıq. Öz tariximizi heç vaxt unutmamalıyıq, ayıq olmalıyıq, həmişə güclü olmalıyıq, həmişə düşmən bizdən qorxmalıdır, necə ki, bu gün qorxur. Məhz bu qorxu nəticəsində bu gün Azərbaycan xalqı sülh içində yaşayır".

### "AZƏRBAYCAN DÖVLƏTİ O QƏDƏR GÜCLÜDÜR Kİ..."

Prezident İlham Əliyev bildirib ki, bu gün Azərbaycan dövləti güclüdür: "Artıq Azərbaycan 1992-ci ilin Azərbaycanı deyil. Bu gün dövlətimiz güclü dövlətdir, özünü müdafiə etməyə qadir olan dövlətdir. Son 80 il ərzində bizim qədər tam və mütləq qələbə qazanmış ikinci dövlət olmamışdır dünyada. Bu gün biz sülh içində yaşayırıq və bunun təminatçısı Azərbaycan dövlətidir, bizim siyasətimizdir".

### XOCALI SOYQIRIMI MEMORİALI

Qeyd edək ki, Xocalı Soyqırımı Memorialı Prezident İlham Əliyevin 2025-ci ilin fevralında imzaladığı Sərəncama əsasən, Xocalı faciəsi qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, tarixi həqiqətlərin gələcək nəsillərə çatdırılması və milli yaddaşın qorunması məqsədilə yaradılıb. Layihə Heydər Əliyev Fondu tərəfindən hazırlanan konsepsiya əsasında reallaşdırılıb. Memorialı dörd tərəfdən əhatə edən monolit Xocalı sakinlərini soyqırımından qorumağa çalışan rəmzi əllər formasında layihələndirilib. Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq memorialın həyətində qış fəslinin sonunda çiçək açan və yazın müjdəçisi olan badam ağacları əkilib. Bu illər ərzində "Xocalıya ədalət!" kampaniyasının rəmzi də badam çiçəyi seçilib və bu, təsadüfi deyil. Badam çiçəyi Xocalıda 1992-ci ilin fevral ayında törədilmiş soyqırımına münasibətdə ədalətin təmin olunmasını əks etdirir. Memorial dörd bölmədən ibarətdir. İlk iki bölmədə Xocalı soyqırımı qurbanlarının xatirəsini yaşadan ekspozisiya zalı yaradılıb. Xocalı Soyqırımı Memorialı memarlıq və ideya baxımından milli yaddaşın qorunmasına xidmət edən məkandır.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# DEPORTASİYA VƏ SOYQIRIMINA MƏRUZ QALAN AİLƏ





Mürvət Məmmədov: "Xocalıda əsir olmuş şahidlərin sonradan söylədiklərindən belə məlum oldu ki, atamı və iki qardaşımı aparıb erməni məzarı üstündə başlarını kəsiblər. Ardınca da digər əsirlərə bir xəndək qazdırıb onları orada basdırıblar. İndiyə kimi onların dəfn edildiyi yer naməlumdur".

ƏRTURAN İSMAYIL

"Ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi deportasiya, soyqırımı mənim uşaqlığımı, gəncliyimi əlimdən alıb, ailəmə faciələr yaşadıb. 1988-ci ilin deportasiyasında səkkiz nəfərlik ailə üzvümlə ata-baba yurdum Qərbi Azərbaycanı tərk etmək məcburiyyətində qaldım. O zaman 10 yaşım var idi. Azərbaycana pənah gətirdik, Xocalı şəhərində məskunlaşdıq. Cəmi 4 il sonra isə Xocalı soyqırımı ilə üzləşdim. Atam Məmməd, böyük qardaşlarım 16 yaşlı Möhlət və 17 yaşlı Söhbət soyqırımı qurbanı oldular, anam, kiçik qardaşım Əhməd və mən isə yaralandıq. 2020-ci ilə qədər bu hadisələrin travması ilə yaşadıq. Amma Vətən müharibəsində əldə etdiyimiz tarixi Zəfər yanan ürəyimizin üzərinə nisbətən su səpdi, məlhəm oldu". Bu fikirlər uşaqlıq və yeniyetməlik illərində deportasiyaya, soyqırımına məruz qalan, qaçqına və məcburi köçkünə çevrilən Mürvət Məmmədova məxsusdur. O, 1978-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Yuxarı Şorca kəndində anadan olub, orada məktəbə gedib. 1988-ci ildə Ermənistan dövlətinin etnik təmizləmə siyasətinə məruz qalıb, böyük qardaşı 15 yaşlı Sərvər Məmmədov şəhid olub. Məcburi şəkildə Xocalıya köçən ailə qaçqınlıq həyatı yaşayıb. 1992-ci ildə Mürvətin 14 yaşı olanda isə Xocalı soyqırımı ilə üzləşib, qardaşları və atası ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilib.

### "EVDƏ OLARKƏN ATƏŞƏ TUTULDUQ"

Mürvət Məmmədov o hadisələri belə təsvir edir: "Ermənistan silahlı birləşmələri 366-cı motoatıcı bölüyün dəstəyi ilə Xocalını mühasirədə saxlayır, daim atəşə tuturdu. Belə ağır mühasirə şəraitində Xocalı dörd ay mübarizə apardı. Xocalının milis dəstəsi, könüllülərdən ibarət silahlı sakinlər şəhərin ətrafında səngərlər qazıb, post qurub keşik çəkirdilər. Atam və iki qardaşım da onlarla birlikdə ermənilərə qarşı döyüşürdülər. Fevralın 25-də gecə ermə-nilərin Xocalıya hücumu daha geniş miqyas aldı. Qardaşlarım və atam səhərə yaxın evə gəldilər ki, artıq hücumun qarşısını almaq olmur və hamı kimi biz də təcili şəhəri tərk etməliyik. Məqsəd bu idi ki, Xocalı sakinləri ilə birlikdə yaxınlıqdakı meşəlik əraziyə üz tutaq. Amma evdə olarkən atəşə tutulduq. Qardaşlarım və atam bütün sursatları tükənənə kimi ermənilərlə döyüşdülər".

### "HAMIMIZI DİRİ-DİRİ YANDIRMAQ İSTƏDİLƏR"

M.Məmmədov bildirir ki, ermənilər Xocalıda evlərə əl qumbarası atıb mülki şəxsləri öldürüb, bəzi hallarda onları diri-diri yandırıblar: "Biz tərəfdən daha cavab atəşi açılmadığını görən silahlı ermənilər evimizə əl qumbarası atdılar. Mən ayağımdan, anam kürəyindən qəlpə yarası aldıq. Bizim evimizə sığınan qonşumuz Sara xala və onun 3 yaşlı körpəsi Natəvan isə daha ağır qəlpə yarası aldıqları üçün dünyalarını dəyişdilər. Onlar da 1988-ci ildə Qərbi Azərbaycandan deportasiya olunan ailənin üzvləri idilər. Bu ailənin başçısı Pənah dayı da atam və qardaşımla bərabər səngərdə vuruşurdu. Ermənilər Azərbaycan və rus dilində bizə səslənirdilər ki, təslim olun, evdən çıxın, sizi öldürməyəcəyik, aparıb Azərbaycan hərbçilərinə təslim edəcəyik və sair. Təbii ki, biz onların vədlərinə inanmırdıq və təslim olmurduq. Onlar evə əl qumbarası atandan sonra qapını sındırıb içəri daxil oldular. Yaralı anamı, məni və digər ailə üzvlərimizi otaqlardan birinə yığıb əvvəlcə evə od vurmaq, hamımızı diri-diri yandırmaq istədilər".



### "O ZABİT RUS DİLİNDƏ ERMƏNİLƏRƏ BİLDİRDİ Kİ..."

Şahidin sözlərinə görə, rus hərbçilərindən biri erməni silahlılarının qaniçənliyinə dözə bilməyib, azyaşlı uşaqlara rəhm etmələrini istəyib: "O zabit rus dilində ermənilərə bildirdi ki, hətta faşistlər də uşaqlara qarşı bu dərəcədə qəddar olmayıblar, axı onların nə günahı var, niyə öldürürsünüz? Rus zabitinin bu etirazından sonra bizi evdə yandırmaq fikrindən daşındılar. Qumbara qəlpəsindən həlak olan Sara xalanı və onun 3 yaşlı qızı Natəvanın meyitlərini sürüyüb bayıra çıxaran anda bizim evə doğru gələn Pənah dayı qızının və arvadının meyitini görüb ermənilərə atəş açmağa başladı. O, iki erməni muzdlusundan birini öldürdü, digərini yaraladı. Digər ermənilərin yarısı Pənah dayının arxasınca düşdülər, yarısı da bizi döyə-döyə maşına doldurub Əsgəran rayonuna gətirdilər".

## "Bir həftə bizə ən ağır işgəncələr verdilər"

M.Məmmədov qeyd edir ki, ermənilər yolboyu, eləcə də əsir saxlanılan yerlərdə qız-gəlinlərin boyun-boğazından qızıl-zinət əşyalarını dartıb çıxarıb, etiraz edənləri vəhşicəsinə döyüblər: "Qardaşım Möhlət buna dözməyib etiraz etdiyinə, ermənini itələyib vurduğuna görə, həm onu, həm də atam Məmmədi və digər qardaşım Söhbəti bizdən ayırıb başqa yerə apardılar. Bir daha onları görmədik. Bir həftə ermənilər bizə ən ağır işgəncələr verdilər. Əsgəranda yaşayan mülki ermənilər də əsir azərbaycanlıları döyməkdən həzz alırdılar. Tam bir həftə əsl cəhənnəm əzabı yaşadıq. Bir həftə sonra bizi yenə döyə-döyə yük maşınına doldurub Əsgəranla Ağdamın arasındakı bir əraziyə gətirdilər. Elə bilirdik ki, hamımızı güllələyəcəklər. Amma Milli Qəhrəman Allahverdi Bağırovun apardığı danışıqlar sayəsində xilas olunduq. Azərbaycan tərəfi qaradərili bir erməni muzdlusunun meyitini təhvil verdi, ermənilər də əsir götürdükləri 80 azərbaycanlı əsiri bizim hərbçilərə qaytardılar. Amma atam Məmməd, qardaşlarım Möhlət və Söhbətin taleyindən xəbərimiz olmadı. Onlar dəyişdirilən 80 əsirin arasında yox idi".

Hadisə şahidi deyir ki, tam 15 il atasını, qardaşlarını axtarıb, aidiyyəti üzrə dövlət qurumlarına, beynəlxalq təşkilatlara çoxsaylı müraciətlər ediblər: "Xocalıda əsir olmuş şahidlərin sonradan söylədiklərindən belə məlum oldu ki, atamı və iki qardaşımı aparıb erməni məzarı üstündə başlarını kəsiblər. Ardınca da digər əsirlərə bir xəndək qazdırıb onları orada basdırıblar. İndiyə kimi onların dəfn edildiyi yer naməlumdur. 2020-ci ilə kimi bu ağrı-acı ilə yaşamışıq. Amma 44 günlük Vətən müharibəsində əldə etdiyimiz tarixi qələbə bizim közərən, göynəyən yaramızın, yanan ürəyimizin üstünə bir az su səpdi. Şəhidlərimizin qisası alındı, narahat ruhlarımızın dolaşdığı Xocalının 2023-cü ildə ordumuzun nəzarətinə keçməyi isə bizi doğma şəhərimizə qovuşdurdu".

M.Məmmədov deyir ki, hazırda Xocalı rayonunun Təzəbinə kəndində anası Narxanım, həyat yoldaşı və iki övladı ilə birlikdə yaşayır. Dövlət tərəfindən onlara 2025-ci ildə yeni mənzil verilib, ailə başçısı kimi daimi işlə təmin olunub.

# "TALİBAN"IN DÜNYANI TƏƏCCÜBLƏNDİRƏN 10 QADAĞASI

Əfqanıstanda 30 milyon əhali şəriət qaydaları ilə yaşamağa məcbur edilir. Hərəkatın tətbiq etdiyi qadağalar dünyanı heyrətə gətirir.



AZƏR NURİYEV

2021-ci ildə Əfqanıstanda yenidən hakimiyyətə gələn "Taliban" hərəkatı beş ilə yaxındır ölkəni idarə edir. Bu illər ərzində ölkə orta əsrlərdən qalma metodlarla idarə edilməkdədir. 30 milyon əhali şəriət qaydaları ilə yaşamağa məcbur edilir. 2021-ci ildən əvvəl ABŞ və NATO ölkələrinin yaxın müttəfiqi kimi çıxış edən Əfqanıstan "Taliban"ın hakimiyyəti yenidən ələ keçirməsindən sonra tamamilə fərqli trayektoriyada hərəkət edir. Hərəkatın xarici siyasəti hazırda beynəlxalq səviyyədə de-yure (rəsmi) tanınma əldə etməyə və ölkənin iqtisadi təcridini aradan qaldırmağa yönəlsə də, ortada uğur yoxdur. Əfqanıstan İslam Əmirliyinin əsasının qoyulmasından 5 il keçsə də, hələ ki, heç bir dövlət "Taliban"ı Əfqanıstanın legitim idarəçisi kimi tanımağa tələsmir.

Hərəkatın qurduğu hökumət beş ilə yaxındır sınaqlarla üz-üzədir. Repatriant problemi, sanksiyalar, iqtisadi sıxıntılar, aparıcı dövlətlərin təzyiqləri azmış kimi, Beynəlxalq Cinayət Məhkəməsi də onun liderlərinin həbsi barədə qərar qəbul edib.

### ÇİNİN DÖVLƏT ŞİRKƏTİ İLƏ NEFT HASİLATI MÜQAVİLƏSİ İMZALANIB

"Taliban"ın iqtisadi dirçəlişə yardım üçün ümid bəslədiyi ölkələrdən ən birincisi qonşusu Çindir. Hərəkat bu yaxınlarda Çinin dövlət şirkəti - "CAPEIC" ilə Amudərya hövzəsindən neft hasilatı ilə bağlı müqavilə imzalayıb. Müqavilə ilk ildə 150, növbəti 3 ildə isə 540 milyon dollar məbləğində yatırımı özündə ehtiva edir. "Taliblər"in Pakistanla əlaqələri isə dəyişkən xarakterə sahibdir. Bu yaxınlarda iki dövlət arasında hərbi münaqişə də yaşanıb. "Taliban"la gərginlik yaşayan yeganə dövlət Pakistan deyil. İran və qonşu Mərkəzi Asiya ölkələri də İslam Əmirliyi ilə anlaşmazlıqlar yaşayırlar. Uzun müddətdir davam edən quraqlıq da Əfqanıstan və qonşuları arasında gərginliyə yol açıb. Əfqanıstandan insanların ciddi miqrasiya etdiyi ölkələrdən biri də Türkiyədir. Hazırda 300 min əfqan qaçqını Türkiyədə yaşayır.



## "ƏFQANISTANA XOŞ GƏLMİSİNİZ"

Maraqlısı budur ki, Əfqanıstan hökuməti ölkədə turizmin inkişafı ilə əlaqəli addımlar atmaq qərarına gəlib. Bununla bağlı zarafatyana bir reklam çarxı da çəkilib. Sosial şəbəkələrdə yerləşdirilmiş reklam rolikində avtomat silahlı saqqallı kişilər başlarına torba keçirilmiş üç insanın arxasında dayanır. "ABŞ üçün bir mesajımız var", - deyən avtomatlı əfqanlardan biri, "əsir"in başından torbanı çıxarır, sevinc dolu təbəssümlə bəyan edir: "Welcome to Afghanistan!" ("Əfqanıstana xoş gəlmisiniz"). Rolikdə daha sonra İslam Əmirliyinin gözəlliklərini nümayiş etdirən görünütülər verilir.

### QADINLARIN HƏDİYYƏ TƏLƏB ETMƏSİ QADAĞAN EDİLİB

2021-ci ildə hakimiyyətə qayıtdıqdan sonra "Taliban"ın verdiyi 10 qəribə qadağanın sıralaması da hazırlanıb. Məsələn, 2025-ci ildə qadınların toylar, Novruz və digər bayramlar üçün kişilərdən məhr və ya hər hansı bir hədiyyə tələb etməsini qadağan edən qərar qəbul edilib.

### 500 MUSİQİ ALƏTİ TONQALDA YANDIRILIB

İkinci qəribə qadağa musiqi ilə bağlıdır. "Taliban" hələ birinci hakimiyyəti dövründə - 1990-cı illərin ortalarından 2001-ci ilə qədər ictimai tədbirlərdə, radioda və televiziyada musiqi ifasını qadağan etmişdi. 5 il əvvəl hakimiyyətə qayıtdıqdan sonra hərəkat bu qadağanı yeniləyib. Bu yaxınlarda Xeyirxahlığı Təşviq və Rəzalətdən Çəkindirmə Nazirliyinin əməkdaşları 500 musiqi alətini tonqalda yandırıblar.

Üçüncü qəribə qadağa qəlyanla bağlıdır. 2022-ci ilin oktyabrında Əfqanıstanda qəlyan çəkmək "dinə zidd" elan edilib və qadağa fətvası verilib. Dördüncü qadağa gözəllik salonları, beşinci isə siyasi partiyalarla bağlıdır.

Altıncı qadağa talismanlar və amuletlər, yeddinci qadağa "TikTok" və "PUBG" -a qoyulub.

Səkkizinci heyrət doğuran qadağa qadınların ola biləcəyi ərazilərə - məsələn, qonşunun həyətinə və ya mətbəxinə baxan pəncərələrin dizaynı ilə bağlıdır. Əgər evlərdəki pəncərələr uyğun olmayan ərazilərə baxırsa, ev sahibləri onun qarşısında insan boyunda divarlar quraşdırmalıdırlar.

Doqquzuncu diqqət çəkən qadağa qalstuklarla bağlıdır. Hərəkat bu aksesuarı xaça bənzədib, qadağa qərarı verib. "Qalstuk xaçdır. Şəriət qanunları ondan qurtulmağı tələb edir", - deyə ədliyyə naziri açıq şəkildə bildirib.

Hərəkatın onuncu diqqət çəkən qadağası MMA ilə bağlıdır. 2024-cü ilin avqustunda Əfqanıstan Bədən Tərbiyəsi və İdman Departamenti ölkə ərazisində qarışıq döyüş sənətlərini qadağan edib.



## YENİ CİNAYƏT MƏCƏLLƏSİ HƏR KƏSİ ŞOKA SALIB

Bu günlərdə isə "Taliban" müddəaları ciddi tənqidlərə səbəb olan yeni Cinayət Məcəlləsi qəbul etməklə hər kəsi heyrətə salıb. Məsələ burasındadır ki, 119 maddədən, üç fəsildən və on bölmədən ibarət olan sənəd heç bir ictimai müzakirədən keçməyib. Onun mövcudluğu yalnız sənəd Əfqanıstanın "Ravadari" hüquq-müdafiə təşkilatı tərəfindən dərc edildikdən sonra məlum olub.

Yeni məcəllənin 58-ci maddəsinə əsasən, mürtəd (dindən dönmüş) sayılan qadın ömürlük həbsə məhkum edilir. Bu müddət ərzində ona hər üç gündən bir on qamçı zərbəsi vurulmalıdır. Sənəddə kişilərə münasibətdə analoji norma yoxdur. Məcəllənin 32-ci maddəsi müəyyən edir ki, ər yalnız zərbələri arvadında sınıqlara, yaralara və ya görünən göyərtilərə səbəb olduqda cinayətkar sayılır, bunun üçün ona 15 günədək həbs cəzası verilə bilər. 34-cü maddə arvadın ərin icazəsi olmadan özbaşına qohumlarının yanına getməsini cinayət hesab edir və bunun üçün həm qadına, həm də ona sığınacaq verən qohumlara üç aylıq həbs cəzası təyin edir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

ƏLAVƏ MANEƏLƏR YARADIB NAĞD DÖVRİYYƏNİ STİMULLAŞDIRIRLAR

# KARTLA BAHA, NAĞD UCUZ





ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Nağdsız ödənişlərin təşviqi məqsədilə POS-terminal istifadəsinin məcburi tətbiqi bazarda gözlənilməz nəticələr doğurub. Son dövrlər bəzi mağazalarda eyni məhsul üçün iki fərqli qiymət formalaşıb: nağd ödəniş üçün bir, kartla ödəniş üçün isə daha yüksək məbləğ. Artıq alıcılar tez-tez “kartla baha, nağd ucuz” dilemması ilə üz-üzə qalırlar. Məsələn, üzərində 100 manat yazılan məhsul nağd alındıqda həmin qiymətə satılır, lakin POS-terminal vasitəsilə ödəniş zamanı müştəridən 105 manat tələb olunur. Sahibkarlar kartla ödəyən müştərilərə endirim tətbiq etmir, bəzi hallarda isə açıq şəkildə əlavə haqq qoyurlar. Bu praktika isə faktiki olaraq vətəndaşları nağdsız ödənişdən çəkindirir, nağd dövriyyəni isə stimullaşdırır. Halbuki dövlət siyasətinin əsas məqsədi kölgə iqtisadiyyatını azaltmaq və ödənişlərin şəffaflığını artırmaqdır. Mövcud vəziyyət isə bu hədəflə ziddiyyət təşkil edir və yeni suallar yaradır: qiymət fərqləri nə dərəcədə qanunidir və bu tendensiya istehlakçıların hüquqlarına necə təsir göstərir?

**“QANUNLA QADAĞANDIR”**

Vergi sahəsi üzrə ekspert Mahmud Abasquliyevin sözlərinə görə, nağdsız ödənişlərin təşviqi məqsədilə yeni qaydalar qəbul olunub: “2026-cı il yanvarın 1-dən Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, nağdsız ödənişlə işləyən vergi ödəyiciləri üçün ümumi dövriyyənin hesablanmasında güzəştlər tətbiq edilir. ƏDV üzrə qeydiyyat üçün dövriyyə həddi mövcuddur və sadələşdirilmiş vergi ödəyiciləri, eləcə də gəlir vergisi ödəyiciləri 12 ay ərzində ardıcıl dövriyyələri 200 min manatı aşdıqda ƏDV ödəyicisi olurlar. Bu həddin daha tez aşılmaması və nağdsız dövriyyəyə üstünlük verilməsi məqsədilə POS-terminal üzrə aparılan əməliyyatlarda dövriyyəyə 0,5 əmsal tətbiq edilir. Məsələn, sahibkar POS-terminal vasitəsilə 270 min manatlıq satış həyata keçiribsə, dövriyyə hesablanarkən bunun yalnız 135 min manatı nəzərə alınır və bu halda o, ƏDV ödəyicisi statusuna keçmir. Bu güzəşt məhz nağdsız ödənişlərin təşviqi məqsədi daşıyır”.

Ekspert sahibkarların belə addım atmasının səbəblərindən də bəhs etdi: “Buna baxmayaraq, bəzi sahibkarlar qanundan yayınmağa çalışır və məhsulu nağd ödəniş zamanı ucuz, nağdsız ödəniş zamanı isə baha satırlar. Halbuki nağd və nağdsız ödənişlər arasında qiymət fərqinin tətbiqi qanunla qadağandır. Bu praktikanın əsas səbəblərindən biri kartla daxil olan vəsaitin bank hesabında qalması və sonradan nağdlaşdırılarkən banklar tərəfindən müəyyən komissiyaların tutulmasıdır. Sahibkarlar bu xərcləri kompensasiya etmək üçün qiymət fərqi tətbiq edirlər. Lakin bu, hər bir halda qanuna ziddir”.



Mahmud Abasquliyev

Bəzi mağazalarda kartla ödəniş zamanı məhsullar daha baha satılır, nağd ödənişə üstünlük verilir. Mütəxəssislər bunu vergidən yayınma cəhdi və bazarda qiymətlərin süni şəkildə artırılması kimi qiymətləndirirlər. Vətəndaşlara bu cür hallarla bağlı aidiyyəti qurumlara müraciət etmək tövsiyə olunur.

## “SAHİBKAR ÜÇÜN CİDDİ RİSKLƏR YARADIR”

M.Abasquliyevin fikrincə, belə hallar sahibkarın özü üçün də ciddi risklər yaradır: “Səyyar vergi yoxlamaları zamanı eyni məhsulun fərqli qiymətlərlə satıldığı müəyyən edilərsə, Vergi Məcəlləsinin müvafiq maddələrinə əsasən, bazar qiyməti tətbiq olunar və bütün satışlar yüksək qiymət üzrə hesablanaraq əlavə vergi tutulması mümkündür. Bu isə dövriyyənin aşılması və əlavə vergi yükünün yaranması ilə nəticələnir. Sahibkarlar bəzən bu addımların onların xeyrinə olduğunu düşünsələr də, gələcəkdə yarana biləcək riskləri nəzərə almırlar”.

## “NAĞDSIZ ÖDƏNİŞLƏR QANUNVERİCİLİYİN TƏLƏBİDİR”

İqtisadçı Eyyub Kərimli də düşünür ki, nağdsız ödənişlər qanunvericiliyin tələbidir: “Sahibkarın ödənişi nağd və ya kartla qəbul etməsində məhdudiyyət olmasa da, bəzi hallarda nağd ödənişlərdən vergidən yayınmaq məqsədilə istifadə edilir. Nağd və nağdsız ödənişlər arasında qiymət fərqinin tətbiqi ciddi qayda pozuntusu hesab olunur və inzibati məsuliyyət yaradır. Müştərilər bu cür hallarla qarşılaşdıqda müvafiq qurumlara şikayət edə bilərlər”.



Eyyub Kərimli

E.Kərimlinin sözlərinə görə, nağdsız ödənişlərin azalması iqtisadiyyatda vergidən yayınma hallarına yol açır: “Halbuki dövlət tərəfindən nağdsız ödənişlər üçün sahibkarlara güzəştlər tətbiq edilir. Bu səbəbdən sahibkarların əksinə, nağdsız ödənişlərdə daha çox maraqlı olmaları məqsədəuyğundur”.

## “QANUNSUZ ÖDƏNİŞ ÜSULLARINA RAZILAŞMAMALIDIRLAR”

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun fikrincə, hökumət nağdsız ödənişləri genişləndirməyi təşviq edir və bu istiqamətdə konkret qərarlar mövcuddur: “Amma bəzi biznes subyektləri bu siyasətə qarşı çıxaraq, istehlakçılardan nağd ödəniş tələb edirlər. Məqsəd vergidən yayınmaqdır”.

E.Hüseynov vətəndaşları belə hallarla qarşılaşdıqda müvafiq qurumlara məlumat verməyə çağırdı: “İstehlakçılara “nağd ucuz, kartla baha” kimi şərtlərin qoyulması tamamilə qanunsuzdur. Kartdan-karta köçürmələrlə ödənişlərin qəbulu da qanunvericiliyə uyğun hesab edilmir. Belə biznes qurumları istehlakçılar tərəfindən boykot edilməli, vətəndaşlar endirim və ucuzluq naminə qanunsuz ödəniş üsullarına razılaşmamalıdırlar”.



Eyyub Hüseynov

# UNİVERSİTETLƏRDƏ DƏRS SAATI AZALDILMALIDIRMI?

Ali məktəblərdə dərslərin müddəti ilə bağlı müzakirələr başlayıb. 90 dəqiqəlik akademik dərs saatının 60 dəqiqəyə endirilməsi təklif edilir. Lakin fikirlər birmənalı deyil.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Universitet tələbələrinin bir qismi 90 dəqiqəlik akademik dərs saatının 60 dəqiqəyə endirilməsinin tərəfdarıdırlar. Tələbələrin bu istəyinə qoşulan müəllimlər də az deyil. Onların fikrincə, dərsin ilk yarım və ya bir saatından sonra tələbələrin diqqəti azalır və onlar müəllimi effektiv şəkildə dinləyə bilmirlər. Nəticədə yorğunluq və diqqət dağınıqlığı, informasiya itkisi tədrisin keyfiyyətinə mənfi təsir göstərir. “Mühazirə dərsləri 80, seminar və praktika dərsləri isə 60 dəqiqə təşkil edilə bilər”, - kimi təkliflər səslənir.

Ancaq bu keçidə hələ hazır olmadığımızı, keçid üçün ciddi araşdırmalara və müzakirələrə ehtiyac olduğunu söyləyənlər də var.

### “TƏLƏSMƏMƏLİ VƏ İŞİN ASANINA QAÇMAMALIYIQ”

Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov hesab edir ki, bu cür qərarlar qəbul edərkən ciddi düşünmək lazımdır: “Çünki belə qərarların qəbulu bəzi problemlər də yarada bilir. Ona görə biz maksimal dərəcədə tələsməməli və işin asanına qaçmamalıyıq. Son vaxtlar tendensiya odur ki, hər şey asanlaşsın. Universitetlərə qəbul daha asanlaşdırılsın, dərs saatları daha da azaldılsın və s. Mən düşünürəm ki, bu, gələcəkdə bizə yaxşı heç nə vəd etmir. Özüm də universitetdə dərs deyirəm və 90 dəqiqəni çox hesab etmirəm”.

### TƏDRİS SİSTEMİNDƏ İSLAHATLAR HAQQINDA DÜŞÜNMƏLİYİK

“Məlumdur ki, insanlar hər hansı bir işə ortalama bir saatdan çox diqqətlə fokuslanmaqda çətinlik çəkirlər. Amma Azərbaycan ali məktəblərində mövcud olan 95 dəqiqə (45 dərs + 5 dəqiqə + 45 dərs) elə də pis deyil”, - deyə Kembric Universitetinin professoru Qərib Mürşüdov bildirir.

Onun fikrincə, dərsin müddətini azaltmaq üçün tədris sistemində ciddi islahatlar lazımdır: “Məsələn, tədris və tədqiqat inteqrasiya ola bilər. Bu, həm keyfiyyətli dərslərin verilməsinə, həm də sənayedə lazım olan mütəxəssislərin hazırlanmasına kömək edər. Mövcud sistemi bir az dəyişdirərək ümumilikdə yaxşı nəticə almaq çətin olacaq”.

Professor yaşadığı ölkənin təcrübəsindən danışaraq bildirir ki, İngiltərə universitetlərində bir və iki saatlıq mühazirələr olur: “İki saatlıq mühazirə olanda ortada tənəffüs var. Əslində dərslər 50 və ya 45+10+45 olur. Bu, dərsdən asılıdır və müddət dəyişə bilər. Qeyri-adi hallarda, qonaq mühazirəçi olsa, mühazirə tənəffüs ilə iki saatdan çox da ola bilər. Praktika və məşğələlərlə birlikdə dərsin üç saat da davam etməsi mümkündür. Əsas məqsəd dərslərin uzunluğu yox, tələbələrin öyrənməsidir. Daha yaxşı olardı ki, bizdə təhsilin təşkili və təhsil ilə sənaye arasında əlaqələr müzakirə olunsun”.



Ceyhun Məmmədov

## “ƏSAS MƏSƏLƏ DƏRSİN DEYİLMƏ TƏRZİDİR”



Qərib Mürşüdov

Adil Qeybulla

Azərbaycan Tibb Universitetinin professoru, həkim-cərrah Adil Qeybullanın fikrincə, Türkiyə modeli bizim üçün ən optimal ola bilər: “Amma bir şeyi nəzərə almaq lazımdır ki, dərsin deyilmə metodikası var: istər 90 dəqiqə olsun, istər 60 dəqiqə. Əsas məsələ dərsin deyilmə tərzi - tələbələri maraqlandırmaqdır. Dərs elə deyilər ki, tələbə auditoriyada yuxulaya bilər. Və ya dərs elə deyilər ki, tələbələrdə maraq oyatsın və vaxtın necə keçib getməsi unudulsun. Bundan da çox şey asılıdır”.



## “YENİ NƏSLİN BİR ŞEYƏ DİQQƏTİ FOKUSLAMA DƏQİQƏSİ AZALIB”

Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi Xalidə Həmidova bildirir ki, vaxtilə dərslər mühazirə, seminar, fərdi məşğələ kimi bölünüb, amma tədricən fərqli məzmun yaranır: “Tələbə saatlar və ya saatlara uyğun kreditlər toplamalıdır. Artıq biz beynəlxalq səviyyədə kreditlər toplamağın fərqli, alternativ yollarını görürük. Bizdə standart dərs modelləri olduğu və bütün universitet şəraitimiz bu şəkildə qurulduğu üçün hələ də prosesi ənənəvi modeldə davam etdirməyə məcbur oluruq”.

X.Həmidova hesab edir ki, tədris prosesini təşkil etmək üçün mühit vacib rol oynayır: “Bu mühitin tələbəyə təsiri, həmçinin müəllimin 90 və ya 60 dəqiqəni necə doldurması vacib amildir. Mühitin və dərs metodikasının düzgün qurulması, dərsin nə qədər çəkməsinin o qədər də əhəmiyyətli olmamasını təmin edə bilər”.

X.Həmidovanın fikrincə, hazırkı tələbələrin psixoloji durumu baxımından da bu təkliflər araşdırılmalıdır: “Əlbəttə, yetişməkdə olan uşaqları təhlil edəndə görürük ki, yeni nəslin dərsdə oturma, bir şeyə diqqəti fokuslama dəqiqəsi azalıb. Lazım olan materialları toplaya biləcək fərqli obyektlər olduğu üçün həyatları rəngarəngdir. Bu baxımdan, onların 90 dəqiqə bir yerdə qalmaları problem yaradır. Məlumat obyektləri sürətlə dəyişir. Bu dəyişiklik auditorial saatın formal təhsil sistemindən qeyri-formal təhsil sisteminə sürətli keçidinə gətirib çıxaracaq”.

X.Həmidovanın fikrincə, fənn və peşəyə uyğun da dərs dəqiqələri dəyişə bilər: “Fikrimcə, prosesdə saatın azaldılması və daha da aktivləşdirilməsi məqsədəuyğun olardı. Dərsin vaxt baxımından tənzimlənməsi, diqqət və idrak yükü, dərs saatlarının mənfi təsiri, beynəlxalq təcrübə nəzərə alınmalıdır. 60 dəqiqəlik dərs təklifinin üstünlükləri düşünülməli və ölkə üzrə optimal nəticənin necə olacağı araşdırılmalıdır”.



Xalidə Həmidova

UĞUR Kaspi 28 FEVRAL ŞƏNBƏ 2026 9

QARABAĞDA 18 MİN HEKTAR ƏRAZİNİN MİNA XƏRİTƏSİNİN HAZIRLANMASINA TÖHFƏ VERƏN AZƏRBAYCANLI

# “SIFIRDAN YARATMAQ PROSESİNDƏN ZÖVQ ALIRAM”



Fotolar: Mahir Rüstəmov/Global Photostock

**Prezident mükafatçısı Sərxan Ağadadaşov:** “Məncə, insanın ideyası varsa, nəticənin nə olacağından asılı olmayaraq cəhd etməlidir. Layihələrdə borca düşdüyümüz vaxtlar da olub, amma bu da bizi qorxutmayıb”.

SÖHBƏTLƏŞDİ



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

“O bunu bacardı, çünki ona “sən edə bilməzsən” deyən olmadı”. Bütün uğurlarının təməlində bu düşüncə dayanır. Hesab edir ki, uğurun sirri arxayınlaşmamaq və uşaqlıqdan özünə məhdudiyyətlər qoymamaqdır. İdeyaları nə qədər fantastik olsa da, həmişə addım atmağa üstünlük verib. Onun üçün qorxulu olan ideyanın alınmaması deyil, həmin ideya üçün fəaliyyətə keçməməkdir. Düşünür ki, insan bir dəfə yaşayır və hər kəs öz həyat hekayəsinin baş qəhrəmanı olmağa çalışmalıdır.

Müsahibimiz Prezident mükafatçısı Sərxan Ağadadaşovdur.

Qusarda anadan olub və orta məktəb təhsilini də orada alıb. 2016-cı ildə Azərbaycan Aviasiya Akademiyasının Hava hərəkətinin idarə olunması mühəndisliyi ixtisasında bakalavr və magistratura pilləsi üzrə təhsil alıb. Hazırda Aviasiya Akademiyasında doktorantura pilləsində təhsil alır. Eyni zamanda Akademiyanın Pilotsuz Uçuş Aparatları (PUA) laboratoriyasında qrup rəhbəri və müəllim kimi fəaliyyət göstərir.

2020-ci ildən, xüsusilə Vətən müharibəsi dövründən başlayaraq PUA-ların istehsalı və təmiri sahəsində çalışan müsahibimiz hazırda “Sinam” şirkətində aparıcı mühəndis kimi fəaliyyətini davam etdirir.



## “Bizim evdə “uşaqdır, bacarmaz” anlayışı olmayıb”

● **Sərxan bəy, uşaqlıqdan ideyalarınız qurmaq və yaratmaq üzərində fokuslanıb. Mühəndislik bacarıqları ailədən gəlir?**

● Atam mühəndisdir. Uşaqlıqdan bu mühitin içində böyümüşəm. Evdəki alətlərə marağım erkən yaşlardan formalaşıb. Böyüklər üçün nəzərdə tutulan alətlərdən istifadə edirdim. Ağlıma hər hansı ideya gələndə onu reallaşdırmağa çalışır, çətinlik çəkəndə atam və dayım kömək edirdi. 4-cü sinifdən kompüterimiz olduqdan sonra atamın tələbi ilə hər gün kiçik tapşırıqlar edirdim. Müxtəlif proqramlarda işləyir, gündəlik müəyyən həcmdə iş görürdüm.

● **Sizcə, valideynlərinizin hansı yanaşması texnoloji biliklərinizin formalaşmasına daha çox təsir göstərib?**

● Bizim evdə “uşaqdır, bacarmaz” anlayışı olmayıb. Əksinə, daim suallar verməyə təşviq olunurdum. Hansısa sualı bilməyəndə üzərindən keçmirdilər. Uşaqlıqdan belə bir düşüncə formalaşırdı ki, mütləq hər şeyi bilməli, öyrənməli və güclü texniki baza yaratmalıyam. “Uşaqdır, bilməsə də olar” prinsipi bizdə olmayıb. Qarşıma çıxan hər texniki obyekt maşın motorundan tutmuş raket texnologiyasına qədər maraq obyekti kimi təqdim olunurdu. Bizə daim sistemlərin necə işlədiyini düşünmək və araşdırmaq tövsiyə edilirdi. Bilməmək normal qəbul olunmurdu, öyrənmək əsas prinsip idi.

● **Rayon məktəbi ilə bağlı mövcud stereotiplərə baxmayaraq, siz bu mühitin rəqabət qabiliyyətinizə təsir etdiyini vurğulayırsınız. Bu təsiri hansı amillərlə izah edərdiniz?**

● Gənclər üçün rayon məktəblərində daha çox potensial olduğunu düşünürəm. Uşaq yaşlarımızdan böyük siniflərlə rəqabət aparırdıq. Dərsliklərdə gördüyümüz eksperimentləri real həyatda təkrarlamağa çalışırdıq. Məsələn, 7-ci sinifdə bacımın kimya kitabında Hofman cihazı ilə sudan hidrogen alınması haqqında məlumatı oxudum və bunu tətbiq etdik. Bakıda bunu danışanda insanlar təəccüblənir, amma biz sadəcə kitab materialını tətbiq edirdik. Rayonda böyümək bizdə güclü rəqabət hissi formalaşdırdı. Şəhərə gəlmək məqsədimiz var idi və bunun üçün daha çox çalışmalı olduğumuzu anlayırdıq. Universitetə qədər Bakıya yalnız yarış və mükafatlandırma tədbirləri üçün gəlirdik. Bakı bizim üçün həmişə yeni məqsədlərin simvolu olub. Universitetə qəbul olduqdan sonra bu enerji daha da artdı. Şəhərə gəlib əliboş qayıtmaq bizim üçün ən böyük qorxu idi. Buna görə daim yuxarı pillədə qalmaq üçün çalışmalı idik.

● **Bakıya gəldikdən sonra da ideyalarınız tükənməyib, hətta layihələriniz sərhədləri aşıb, okeanın digər tərəfinə çatıb.**

● Bəli, Aviasiya Akademiyasına daxil olduğum ilk ildən müxtəlif layihələr üzərində işləməyə başladım. Nəticənin nə olmasından asılı olmayaraq, hər müsabiqəyə qatılırdım. Çünki düşünürdüm ki, yalnız standart universitet təhsili ilə uğur qazanmaq çətindir. İnsan mütləq öz üzərində işləməli və fərqlənməlidir. 1-ci kursdan başladığım üçün dəfələrlə uğursuzluqla qarşılaşdım. Çox insanın 30-35 yaşında qarşılaşdığı çətinliklərlə daha erkən yaşlarda üzləşirdim. Psixoloji olaraq buna öyrəşmək çətin idi, amma zamanla bunun normal olduğunu başa düşdüm. İkinci kursu bitirdikdən sonra işlədiyimiz qrupla birlikdə İT sahəsinə də daxil olduq. Maliyyə problemlərimiz olsa da, öhdəsindən gəldik. Proqramlaşdırmanı öyrəndim və proqramlaşdırma ilə aviasiyanı birləşdirən layihələrdə iştirak etməyə başladım.

> *Biz dron sahəsinə başlayanda bu texnologiyanı insanlar daha çox toy çəkilişlərində görürdülər. Kimlə danışırdıqsa, soruşurdular ki, dronları toy çəkilişləri üçün hazırlayırsınız?*

### “LAYİHƏLƏRƏ QOŞULMAQ ÜÇÜN OKSFORDDA OXUMAĞA EHTİYAC YOXDUR”

2018-2019-cu illərdə ABŞ-də keçirilən peyk layihəsinə qatıldıq. Bu, konserv qabı ölçüsündə peyklərin layihələndirilməsi yarışması idi. Dünya üzrə 400 komanda iştirak edirdi və biz finala çıxan 30 komanda arasında idik. Komanda üzvləri ilə yataqxanada qalır və birlikdə hazırlaşırdıq. Layihə zamanı çox şeyi sıfırdan öyrəndik. Yadımdadır, komandada bəziləri hələ elektrik lampasının necə işlədiyini yeni öyrənirdi, amma özümüzə güvənərək prosesin içində öyrənirdik. Belə layihələrdə iştirak etmək üçün mütləq xaricdə təhsil almağa ehtiyac yoxdur. Əsas odur ki, başlamaq və potensialı göstərmək lazımdır.

● **Gənclər Azərbaycanda investorların olmamasından da şikayətlənirlər.**

● İnvestor var, sadəcə onlar sizin potensialınıza inanmalıdırlar. Potensialınızı göstərdikdə, investor da sizi tapır. 400 komandadan 300-ü ilk mərhələdə çıxmasına baxmayaraq, biz növbəti mərhələdə potensialımızı göstərdik və dəstək almağa başladıq. Yəni belə layihələrə qoşulmaq üçün Oksfordda oxumağa ehtiyac yoxdur. Peyk layihəsi ilə ABŞ-yə dəvət almışdıq. 20 yaşlı tələbə üçün bu, böyük arzu idi. Pandemiya səbəbindən gedə bilmədik. Amma dayanmadıq. Sentyabrdan sonra yenidən şəhərə qayıdıb layihəni davam etdirdik. Daha sonra müharibə başladı və bizi istehsalat sahəsinə cəlb etdilər. Müharibə dövründə dronların yaradılması, təmiri və tətbiqi, zədələnmiş dronların bərpası və əsgərlərə istiqamət verilməsi işlərində iştirak etdik.

● **Tələbələrin PUA yaratması çoxlarına qeyri-real görünürdü deyirsiniz. Maddi təminatınız olmadan bunu necə reallaşdırdınız?**

● Bu işlərə başlayarkən əsas məqsədimiz pul qazanmaq deyildi. Bu sahədə fəaliyyətə 2018–2019-cu illərdə başlamışıq, amma ilk gəlirimizi 2021-ci ildə əldə etmişik. Amma gəlir bizim üçün heç vaxt əsas motivasiya olmayıb. Bununla yanaşı, tez-tez “Azərbaycan hara, bu sahə hara?” kimi sözlər eşidirdik. Amma bu fikirlərə çox əhəmiyyət vermirdik. Məncə, insanın ideyası varsa, nəticənin nə olacağından asılı olmayaraq cəhd etməlidir. Layihələrdə borca düşdüyümüz vaxtlar da olub, amma bu da bizi qorxutmayıb. Məni daha çox qorxudan gələcəkdə müəyyən yaşa çatanda “bunu niyə sınamadım?” hissidir. Ona görə də edib peşman olmağı, etməyib peşman olmaqdan üstün tuturam. Çox görürəm ki, 35-40 yaşlarında insanlar “gərək bunu sınayardım” deyirlər. Mən bunu demək istəmirəm.

### “18 MİN HEKTAR ƏRAZİNİN MİNA XƏRİTƏSİNİN HAZIRLANMASINA TÖHFƏ VERDİK”

● **Vətən müharibəsi dövründən PUA-ların istehsalı və təmiri sahəsində çalışmısınız. Bu sahəyə gələndə düşünürdünüzmü ki, nə vaxtsa müharibə başlayacaq və siz hərbi məqsədlər üçün çalışacaqsınız?**

● Biz dron sahəsinə başlayanda bu texnologiyanı insanlar daha çox toy çəkilişlərində görürdülər. Kimlə danışırdıqsa, soruşurdular ki, dronları toy çəkilişləri üçün hazırlayırsınız? Gənclər bəzən yalnız mövcud mühitə uyğunlaşır və ətrafda baş verənləri müşahidə etməklə kifayətlənirlər. Düşünürdüm ki, insanların atdığı kiçik addımlar gələcəkdə böyük nəticələrə çevrilə bilər. Biz də dron sahəsinə bu düşüncə ilə başladıq. Amerika layihəsində də məqsədimiz öyrənmək və öyrəndiklərimizi ölkəyə gətirmək idi. Əgər bir sahə artıq haradasa inkişaf edibsə, orada lider olmaq çətindir. Ona görə də yeni imkanların olduğu, hələ tam formalaşmamış sahələrdə fəaliyyət göstərmək daha effektivdir. Müharibə bitdikdən sonra da fəaliyyətimizi davam etdirdik. 2021-ci ildə Qarabağda mina axtarışı işlərinə cəlb olunduq. Bu işlərdə ANAMA ilə yanaşı, xarici şirkətlər də iştirak edirdi. Onlardan biri ingilis şirkəti idi və İraq da daxil olmaqla müxtəlif ölkələrdə mina axtarışı ilə məşğul olmuşdu. Qarabağ bölgəsində fəaliyyətə başlayanda onlar bəzi texniki problemlərlə üzləşdilər və bir neçə uçuş aparatını itirdilər. Daha sonra bizə müraciət etdilər. Orada baza stansiyaları qurduq və bir həftə ərzində beş uçuş aparatını yenidən uçuşa hazır vəziyyətə gətirdik. Həm mühəndis kimi dronları yığır, həm də pilot idarəetməsində iştirak edirdim. Bu iş nəticəsində 18 min hektar ərazinin mina xəritəsinin hazırlanmasına töhfə verdik. Mənim üçün ən böyük uğur o idi ki, ingilis şirkətinin nümayəndələri Azərbaycanın bu səviyyədə texnoloji potensiala malik olduğunu bilmədiklərini etiraf etdilər.

## “Xarici şirkətlərdən təkliflər almışam”

● **Adətən bu sahədə uğur qazanan mütəxəssislər xaricdən təkliflər alır və ölkəni tərk etməyi düşünürlər.**

● Xarici şirkətlərdən təkliflər almışam. Xüsusilə Teknofest yarışmasında qalib olduqdan sonra bu təkliflər daha da artdı. Türkiyə, Kanada və ABŞ-dən müxtəlif əməkdaşlıq təklifləri olub. Bəzi şirkətlərlə məsafədən iş formatında əməkdaşlıq da etmişik. Amma mən heç bir ölkəni daimi yaşayış yeri kimi görmürəm. Xaricə getmək mənim üçün əsas məqsəd deyil. Daha çox xaricdə əldə etdiyim bilik və təcrübəni ölkəmə gətirməyi düşünürəm. Xüsusilə doğulduğum rayona bağlılığım böyükdür. Özümü ölkəm qarşısında borclu hiss edirəm. Xaricdə artıq qurulmuş sistemlərdə işləmək nisbətən asandır. Amma mən sıfırdan yaratmaq prosesindən zövq alıram. Öz gücüm hesabına qurduğum işlər mənə daha böyük motivasiya verir.



Həyata bir növ oyun kimi baxıram: qarşıda tapşırıq olur, onu yerinə yetirirsən və nəticədə mükafat qazanırsan.

### “MEDALLARIMI PREZİDENT İLHAM ƏLİYEV VƏ RƏCƏB TAYYİB ƏRDOĞAN TƏQDİM ETDİ”

● **Teknofest tarixində ilk dəfə sizin komanda iki layihə ilə birinci yer tutub. Bu, necə baş verdi?**

● Qarabağdan qayıtdıqdan sonra magistraturanın I kursunda təhsil alırdım. İlk mərhələdə Teknofest yarışmasına qoşulmaq fikrim yox idi. Komandamızda olan tələbə yoldaşım məsləhət almaq üçün mənə müraciət etdi. Komanda qurduq və dörd nəfərlik heyətlə iki layihə ilə yarışmaya qatılmağa qərar verdik ki, ən azı birindən nəticə əldə edək. Nəticədə Teknofest tarixində ilk dəfə bir komanda iki layihə üzrə birinci yeri qazandı. Medal və mükafatlarımızı Prezident İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan təqdim etdilər.

● **Və Prezident mükafatı... Bu mükafat sizdə daha çox təzyiq, yoxsa motivasiya yaratdı?**

● Bu mükafat mənə sevincdən daha çox məsuliyyət hissi yüklədi. Əvvəllər sadəcə arzu kimi görünən məqsədlər zamanla həyat missiyasına çevrilir. Artıq nəticə əldə etmək istək yox, məsuliyyət kimi qəbul olunur. Çətin anlarda bəzən düşünürsən ki, geri çəkilmək şansın yoxdur. Amma məhz bu yanaşma daha çox çalışmağa motivasiya verir.

# BAKI DÜNYA FORUMUNA HAZIRDIR

**WUF13 çərçivəsində Mərkəzi Rezervasiya Platforması istifadəyə verilib. Yeni sistem forum iştirakçılarının yerləşdirmə prosesini daha çevik və rahat şəkildə təşkil etmək məqsədi daşıyır.**




Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasına (WUF13) hazırlıq prosesinə həsr olunmuş mətbuat konfransında WUF13 ilə bağlı rəsmi internet səhifəsi təqdim edilib. "WUF13 Azərbaycana açılan rəqəmsal pəncərə" şüarı ilə təqdim olunan platforma tədbirə ev sahibliyi edən ölkə kimi turizm imkanlarımızı, mədəni irsimizi və müasir infrastrukturumuzu əks etdirir.

**AZƏRBAYCANIN QLOBAL ŞƏHƏRSALMA GÜNDƏLİYİNƏ VERDİYİ TÖHFƏ**

WUF13-ün Milli Koordinatorunun müavini, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Aparatı rəhbərinin müavini Gülşən Rzayeva deyib ki, Azərbaycanda şəhərsalma sahəsində mühüm yeniliklərə start verilib. Beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində bu istiqamətdə ciddi addımlar atılıb, çoxsaylı layihələr icra olunub və yeni təşəbbüslər həyata keçirilib. Bütün bunlar ölkəmizin strateji baxışının və dayanıqlı inkişaf prioritetlərinin təzahürüdür. O qeyd edib ki, "Şəhərsalma və Memarlıq İli"ndə WUF13-ün ölkəmizdə keçirilməsi təsadüfi deyil. Bu, Azərbaycanın qlobal şəhərsalma gündəliyinə verdiyi töhfənin və artan beynəlxalq rolunun məntiqi nəticəsidir. "Forum çərçivəsində qlobal səviyyədə şəhərsalma siyasəti, praktik həll yolları və iqlim dəyişikliklərinin təsiri ətraflı şəkildə müzakirə olunacaq. Urbanizasiyanın sürətlə gücləndiyi bir dövrdə mənzil təminatı məsələsi xüsusi əhəmiyyət kəsb edir. BMT-nin statistikasına əsasən, dünyada 3 milyard insan mənzil təminatında çətinliklərlə üzləşir. WUF13 məhz bu kimi vacib və aktual məsələlərə həsr olunacaq",- deyə G.Rzayeva bildirib.

**FORUM XÜSUSİ ƏHƏMİYYƏT DAŞIYIR**

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Qlobal Bilik və Təbliğat Bölməsinin direktoru Edlam Yemeru deyib ki, Ümumdünya Şəhərsalma Forumu indiyədək 12 müxtəlif ölkə və şəhərdə keçirilib. İndi isə Bakı seçilib. Sonuncu forum Misirdə olub. "Bakıda keçiriləcək forum xüsusi əhəmiyyət daşıyır. Çünki hazırda qlobal miqyasda məskunlaşma böhranı getdikcə daha kəskin xarakter alır. Məhz bu təcili çağırışlar fonunda WUF13-ün Bakıda təşkili olduqca vacibdir. Eyni zamanda, Bakıda keçiriləcək forum növbəti 10 ilin şəhərsalma gündəliyinin formalaşmasına mühüm təsir göstərəcək",- deyə Edlam Yemeru bildirib.



Gülşən Rzayeva  Edlam Yemeru

## Turizm imkanlarının daha da genişlənməsinə təkan



Dövlət Turizm Agentliyi sədrinin müşaviri Kənan Quluzadənin sözlərinə görə, WUF13 kimi beynəlxalq tədbirlər Azərbaycanın turizm imkanlarının daha da genişlənməsinə mühüm təkan verir. O qeyd edib ki, Dövlət Turizm Agentliyi bu tədbir çərçivəsində turizm və mədəni irsə həsr olunmuş panel sessiyanın keçirilməsini təklif edib. Eyni zamanda, forum ərazisində Azərbaycanın görməli yerlərini, zəngin mədəni irsini və milli mətbəxini tanıdan xüsusi stend yaradılacaq. "Bununla yanaşı, hotellər üçün təlim proqramlarına start verilib. Bakı və Abşeron ərazisində fəaliyyət göstərən hotel və ictimai iaşə obyektləri bu təlimlərə cəlb olunub. Təxminən 200 iaşə obyektinə xüsusi menyular təqdim edilib və həmin menyularda Azərbaycan mətbəxi xüsusi yer tutur",- deyə K.Quluzadə bildirib.

## WUF13 Mərkəzi Rezervasiya Platforması açılıb

WUF13 çərçivəsində Mərkəzi Rezervasiya Platforması istifadəyə verilib. Yeni sistem forum iştirakçılarının yerləşdirmə prosesini daha çevik və rahat şəkildə təşkil etmək məqsədi daşıyır. Rezervasiya sistemi iştirakçılara müxtəlif kateqoriyalı hotellər, qiymət seçimləri və yerləşmə imkanları üzrə vahid platforma üzərindən seçim etmək imkanı yaradır. Sistem istifadəçi dostu interfeysə malikdir və təhlükəsiz ödəniş mexanizmləri ilə təchiz olunub.

Hazırda platformaya 68 hotel qoşulub. Bu hotellər müxtəlif ulduz kateqoriyalarını və qiymət seqmentlərini əhatə edir ki, bu da iştirakçılara büdcə və üstünlüklərinə uyğun seçim etmək imkanı verir.




# SOCAR regional mərkəz yaradacaq

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Cənubi Koreyanın "Samsung E&A Co., Ltd." şirkəti arasında Anlaşma Memorandumu imzalanıb. "Report" xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında bildirib.

"Samsung E&A Co., Ltd." şirkətinin prezidenti və baş icraçı direktoru Honq Namkunq ilə enerji sahəsində tərəfdaşlıq və əməkdaşlığın genişləndirilməsi imkanları barədə müzakirələr aparılıb.

Görüşdə Azərbaycanın iqtisadi prioritetləri, əlverişli biznes və investisiya mühiti haqqında məlumat verilib. Ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına və qlobal dəyər zəncirlərinə inteqrasiyası baxımından görülən işlər diqqətə çatdırılıb, əməkdaşlıq imkanları qeyd olunub.

Sənəd enerji aktivlərinin səmərəliliyinin artırılması, istehsalın lokallaşdırılması, regional sənaye mərkəzinin yaradılması, insan kapitalının inkişafı və karbonsuzlaşma üzrə əməkdaşlıq perspektivlərinin araşdırılmasını nəzərdə tutur", - M. Cabbarov qeyd edib. Onun sözlərinə görə, sənədin icrası yerli şirkətlərin qlobal dəyər zəncirinə inteqrasiyası baxımından da əhəmiyyət daşıyır.

Qeyd edək ki, dünyanın ən böyük transmilli konqlomeratlarından olan "Samsung Group"un törəmə şirkəti "Samsung E&A Co., Ltd." qlobal mühəndislik, satınalma və tikinti (EPC) podratçısıdır. Şirkət texniki-iqtisadi əsaslandırma (FS), detallı mühəndislik, satınalma, tikinti, istismaravermə (commissioning) və layihə idarəetməsi daxil olmaqla inteqrə olunmuş xidmətlər təqdim edir. "Samsung E&A Co., Ltd." hidrokarbonlar və enerji infrastrukturu üzrə neft və qaz emalı zavodları, neftayırma və neft-kimya kompleksləri, qaz emalı və yardımçı infrastruktur obyektlərini layihələndirir və həyata keçirir. Şirkət Yaxın Şərq, Asiya və digər strateji bazarlarında iri miqyaslı layihələrdə təcrübəyə malikdir.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 284
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# ƏMLAK BAZARINDAKI ƏCNƏBİ ALICILAR

Xarici vətəndaşların daşınmaz əmlak bazarına yönəltdiyi vəsaitin illik həcmi təxminən 200-300 milyon manat qiymətləndirilir. Bu məbləğ tikinti sektoruna xarici investisiya axını baxımından əhəmiyyətlidir. Bu kapital tikinti sektorunda əlavə tələb formalaşdırır, inşaat fəaliyyətini stimullaşdırır və məşğulluğa müsbət təsir göstərir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Son beş ildə Azərbaycanın daşınmaz əmlak bazarında diqqətçəkən bir statistika formalaşıb. 2021-2025-ci illərdə xarici ölkə vətəndaşları ölkəmizdə ümumilikdə 6 913 daşınmaz əmlak əldə edib. Bu alımların böyük hissəsi isə bir ölkənin payına düşür: həmin dövrdə 4 638 mənzil Rusiya Federasiyası vətəndaşları tərəfindən alınıb. Yəni xarici alıcıların ümumi sayında açıq üstünlük Rusiyaya məxsusdur. Siyahının növbəti pillələrində Gürcüstan (716) və Türkiyə (312) qərarlaşıb. Ardınca Ukrayna (198), İran (187), Qazaxıstan (160), Almaniya (105), ABŞ (72), Albaniya (63), İsrail (58) və digər ölkələr gəlir. Bu statistika təkcə alqı-satqı faktı deyil, həm də Azərbaycanın son illər xarici vətəndaşlar üçün cəlbedici məkan kimi önə çıxmasının göstəricisidir. Xaricilərin minlərlə mənzil alması bazarda yeni istiqamət formalaşdırır və sual yaradır: bu alımların arxasında hansı motivlər dayanır? Xaricilərin daşınmaz əmlak bazarımıza yönəlməsi bu sahəyə necə təsir göstərir?

**RUSİYA-UKRAYNA MÜHARİBƏSİNİN TƏSİRİ**

Əmlak eksperti Ramil Osmanlının sözlərinə görə, xarici ölkə vətəndaşlarının Azərbaycanda daşınmaz əmlak almasının bir sıra səbəbləri var: "Statistikada ilk sırada Rusiya vətəndaşları görünsə də, ev alanların əhəmiyyətli hissəsi orada yaşayan və Rusiya pasportu daşıyan azərbaycanlılardır. Bu tendensiya Rusiya-Ukrayna müharibəsindən sonra daha da güclənib. Eyni zamanda, ölkəmizə işləmək üçün gələn və oturum almaq istəyən şəxslər üçün dəyəri 100 min manatdan yuxarı olan daşınmaz əmlak əldə etmək müəyyən imkanlar yaradır. Miqrasiya məqsədli alqı-satqılar bunu təsdiqləyir. Oturum almaq məqsədilə mənzil əldə edənlərin bir qismi həmin evlərdə yaşamır, onları kirayəyə verirlər. Bununla yanaşı, investisiya xarakterli alışlar da var. Bəzi alıcılar mənzilləri kirayə vermək üçün əldə edirlər. Statistikada illər üzrə artım və azalma müşahidə olunur ki, bu da əsasən alıcıların yaşadığı ölkələrdəki iqtisadi vəziyyətlə bağlıdır. İqtisadi sabitlik dövründə xaricə investisiya marağı azalır, qeyri-müəyyənlik və iqtisadi geriləmə zamanı isə kapital daha təhlükəsiz hesab edilən istiqamətlərə yönəlir".

## "Mənzillər kapitalı qorumaq üçün alınır"

R.Osmanlının fikrincə, ümumilikdə xarici alıcıların bazardakı payı böyük deyil: "Buna görə də onların bazardan çəkilməsi ciddi risk yaratmır. Əksinə, xüsusilə investisiya məqsədli vəsait axını ölkəyə əlavə kapital cəlb edilməsi baxımından daşınmaz əmlak bazarı üçün müsbət tendensiya hesab olunur".

İqtisadçı-ekspert Rəşad Həsənov isə düşünür ki, bu rəqəmlər miqrasiya statistikası ilə üst-üstə düşür: "Azərbaycandan miqrasiya edənlərin 60-70 faizi Rusiyaya köçüb və ölkəmizdə mənzil alanların böyük hissəsi də məhz orada yaşayan azərbaycanlılardır. Xaricdə müxtəlif məqsədlərlə yaşayan soydaşlarımız vətəndə əmlak almağı həm gələcək plan, həm də təhlükəsizlik addımı kimi qiymətləndirirlər. Onların bir qismi yaşlandıqda Azərbaycana qayıdıb burada yaşamaq niyyətindədir, digərləri isə çalışdıqları ölkədə iqtisadi və ya siyasi risk yaranarsa, geri dönmək üçün əvvəlcədən mənzil sahibi olmağa üstünlük verirlər. Məsələn, bəzi İran vətəndaşları mümkün qeyri-sabitlik ehtimalını nəzərə alaraq Azərbaycanda ev almaqla özlərini sığortalayırlar. İnvestisiya məqsədli alışlar da kifayət qədərdir. Mənzillər kirayə gəlir əldə etmək və kapitalı qorumaq üçün də alınır. Bununla yanaşı, ölkəmizdə uzun müddət yaşayan və işləyən xarici vətəndaşlar da zamanla mənzil sahibi olurlar".

İqtisadçı xaricilərin ölkəmizdən mənzil sahibi olmasının yaratdığı üstünlüklərdən də bəhs etdi: "Ümumi göstəricilər bu alımların genişmiqyaslı olmadığını göstərir. Xarici vətəndaşların daşınmaz əmlak bazarına yönəltdiyi vəsaitin illik həcmi təxminən 200-300 milyon manat qiymətləndirilir. Bu məbləğ ümumi bazarın 4–5 faizini təşkil etsə də, tikinti sektoruna və daşınmaz əmlak bazarına xarici investisiya axını baxımından əhəmiyyətlidir. Bu kapital tikinti sektorunda əlavə tələb formalaşdırır, inşaat fəaliyyətini stimullaşdırır və məşğulluğa müsbət təsir göstərir. İl ərzində təxminən 30 min mənzilin satıldığını nəzərə alsaq, xarici vətəndaşların aldığı mənzillər ümumi dövriyyənin 4-5 faizinə bərabərdir".

## "Həm inflyasiya, həm də mənzil qiymətlərinə təsir edir"



Ramil Osmanlı

R.Həsənovun fikrincə, xarici vətəndaşların etdiyi alışların daşınmaz əmlak bazarında qiymətlərin formalaşmasına təsiri də tamamilə istisna edilmir: "Hesablamalara görə, xarici alıcıların aktivliyi qiymət artımlarına təxminən 5 faiz həcmində təsir göstərə bilər. Qiymət artımı isə yerli əhalinin mənzil alıcılığına 5-10 faiz civarında mənfi təsir edir. Əgər xarici alıcılar bazardan çəkilərsə, bu, alıcılıq qabiliyyətində 4-5 faiz azalma yaradaraq müəyyən durğunluğa və qiymətlərin qismən enməsinə səbəb ola bilər. Qiymətlərin azalması yerli vətəndaşların mənzil əldə etmək imkanlarını artırır. Bununla belə, ölkəyə kapital axını baxımından bu proses əhəmiyyətli sayıldığından, xarici investisiyanın təşviqi üçün əlavə addımların atılmasını daha məqsədəuyğun hesab edirəm".



Rəşad Həsənov

# QAPALI BİNA, AÇIQ SUALLAR



Foto: Tapdıq Abdullayev/ Global Photostock

**Bakı Dövlət Sirkinin binası xeyli müddətdir ki, qapalıdır. Sirk hazırda fəaliyyətini Avropadan gətirilmiş və Dənizkənarı Bulvar ərazisində - Su İdman Sarayının yanında quraşdırılmış sirk meydançasında davam etdirir.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Paytaxtın mədəni simvollarından biri sayılan Bakı Dövlət Sirkinin binası xeyli müddətdir ki, qapalıdır. Binanın qapalı qalması ilə bağlı rəsmi açıqlamalarda təhlükəsizlik və texniki problemlər əsas səbəb kimi göstərilsə də, aradan keçən zamana baxmayaraq, sirkin binasının taleyi ilə bağlı məlumat yoxdur. Hətta iddia olunur ki, binada heç bir təmir işləri də aparılmır. Maraqlıdır, bu mədəniyyət ocağının taleyi ilə bağlı planlar nədir?

### "ƏSASLI TƏMİR ÜÇÜN LAYİHƏLƏNDİRMƏ İŞLƏRİ APARILIR"

Bakı Dövlət Sirkinin direktor əvəzi Nahid Ağayev "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, Mədəniyyət Nazirliyinin 2024-cü ilin 7 yanvar tarixli qərarı əsasında Bakı Dövlət Sirkində əsaslı təmir və rekonstruksiya işlərinin aparılması səbəbindən kütləvi tədbirlərin nümayişi dayandırılıb: "Ölkə sakinlərinə sirk tamaşalarının bu müddət ərzində nümayişini təşkil etmək üçün nazirliyin dəstəyi ilə Avropadan ən böyük ölçülü konstruktiv sirk meydançası gətirilib və Dənizkənarı Bulvar ərazisində - Su İdman Sarayının yanında quraşdırılıb. Sirk tamaşaları həmin ünvanda nümayiş olunur. Hazırda Bakı Dövlət Sirkində əsaslı təmir və rekonstruksiya işlərinin başlanması üçün müvafiq layihələndirmə və smeta işləri aparılır. İşlər yekunlaşan kimi bu barədə məlumat veriləcək".

### "BİNANIN BƏRPASI İLƏ BAĞLI RƏSMİ MÜRACİƏTLƏR EDİLİB"

N.Ağayev bildirir ki, əsas binanın bərpası ilə bağlı Mədəniyyət Nazirliyinə və ya digər aidiyyəti qurumlara rəsmi müraciətlər edilib: "2024-cü ildə Fövqəladə Hallar Nazirliyinin aidiyyəti qurumlarına binanın mövcud durumunun qiymətləndirilməsi ilə bağlı müraciət olunub və həmin müraciətlər əsasında binada instrumental qiymətləndirilmə keçirilib. Müvafiq hesabat Mədəniyyət Nazirliyinə təqdim olunub. Aidiyyəti qurumların qiymətləndirmə hesabatlarından sonra əsaslı təmir və rekonstruksiya işlərinin layihələndirməsinə başlanılıb. Hazırda binanın bərpası mümkündür və bu istiqamət üzrə işlər aparılır".


Nahid Ağayev
Foto: Sabir Məmmədov Global Photostock

## "BAKI DÖVLƏT SİRKİ DƏ BU TƏCRÜBƏDƏN FAYDALANIR"

Məlumat üçün bildirək ki, sirk hazırda fəaliyyətini şapito (çadır) formatında davam etdirir. Qurum rəsmisi bildirir ki, sirk tamaşalarının yüngül konstruksiyalı sirkdə (şapitoda) nümayişi təcrübəsi dünyada geniş yayılıb: "Digər tərəfdən, bir sıra Avropa ölkələrində hazırda da stasionar sirklər yoxdur, orada bütün sirk fəaliyyəti şapito səhnəsində həyata keçirilir. Bakı Dövlət Sirki də bu təcrübədən faydalanır və əsaslı təmir, konstruksiya işləri bitənədək sirk proqramlarının nümayişi qeyd olunan ünvanda yüngül konstruksiyalı şirkdə davam etdiriləcək. Bakı Dövlət Sirkinin yeni ünvanda fəaliyyəti sirk kollektivinin yaradıcılıq planlarına xüsusi bir təsiri yoxdur. Hər bir yeni sirk layihəsi öncədən tamaşaçıların maraqları və repertuar planlarını nəzərə alaraq təşkil edilir. Quraşdırılmış sirk dövrün müasir tələblərinə cavab verir və orada da biz proqramlarımızın nümayişini müasir tələblər çərçivəsində həyata keçirə bilirik".

### KİF QOXUSU, RÜTUBƏT...

Peşəkar aktyor və illüziyaçı Tofiq İsgəndərli bildirir ki, Bakı Dövlət Sirkinin uzun müddət bağlı qalması mədəni baxımdan ciddi problemlər yaratsa da, əsaslı təmiri də çox vacibdir: "O binanın əsaslı təmirə ehtiyacı var idi. Əvvəllər binanın yalnız səthi təmir edilirdi. Arenanın altında ayrıca bir manej var idi və orada daim kif qoxusu, rütubət və su basma problemləri olurdu. Günbəz təmir olunmayıb, elektrik sistemi çox köhnə idi, hər an qəza baş verə bilərdi. Binanın altı "ayrı bir dünya" idi. Hazırda əsaslı təmir üçün böyük maliyyə vəsaiti tələb olunur".

### "HÖKUMƏT SİRKLƏRDƏN MİLYONLARLA VƏSAİT QAZANIRDI"

Vaxtilə, o binada da tamaşalar hazırlayan illüziyaçı bildirir ki, bu binanın həm mədəni, həm də sosial baxımdan böyük əhəmiyyəti var: "Sirkin digər incəsənət növlərindən fərqi onun canlılığıdır. Kino və teatr keçmiş və ya gələcək hadisələri səhnədə canlandırır, amma sirk insanın hazırda nəyə qadir olduğunu göstərir. Bu sənət gözəllik, cəsurluq, mərdlik və igidlik nümunəsidir. Tamaşaçıya həm estetik zövq, həm də qorxmazlıq aşılayır. Sirk həm də yaş və dil məhdudiyyəti tanımır, hər kəs üçün açıq bir incəsənət formasıdır. Üstəlik, sirkin kommersiya potensialı da yüksəkdir. Güclü kollektivi olan sirk dünyanı gəzərək ciddi gəlir əldə edə bilər. Sovet dövründə hökumət sirklərdən milyonlarla vəsait qazanırdı. Nömrələr təsadüfi hazırlanmazdı, xərclənən vəsaitin əvəzini 10 qat çıxarırdılar".


Tofiq İsgəndərli
Foto: Səbinə Şəbiyeva Global Photostock

## BAKI DÖVLƏT SİRKİ YALNIZ BİR ƏYLƏNCƏ MƏRKƏZİ DEYİL...

T.İsgəndərli bildirir ki, sirk müasir texniki qurğular və avadanlıqlarla təmin edilməli və binanın tarixi və mədəni dəyəri qorunmalıdır: "Stasionar bina yalnız tamaşalar üçün deyil, həm də muzey kimi istifadə edilə bilər. Bu, sirkin irsini gələcək nəsillərə çatdırmaq baxımından vacibdir. Sirkin illərlə fəaliyyətsiz qalması mədəni və sosial risklər yaradır. Uzun müddət bağlı qalmaq insanlarda sirk sənətini unudulmağa məhkum edə bilər. Şapito formatında fəaliyyət müvəqqəti həll hesab olunur. Düzdür, dünyanın bir çox ölkəsində sirklər çadırlarda fəaliyyət göstərsə də, stasionar bina rahatlıq, quruluş və tarixi dəyər baxımından önəmlidir. Bakı Dövlət Sirki yalnız bir əyləncə mərkəzi deyil, həm də xalqın mədəni irsinin bir parçasıdır. Onun qorunması, bərpası və fəaliyyətinin bərpası mədəniyyətin gələcəyi üçün vacibdir".



Foto: Tapdıq Abdullayev/ Global Photostock

# DƏNİZDƏN GƏLƏN DELİKATES



“Əlçatan delikates” kimi təqdim olunan krevetka Azərbaycanda artıq tanış məhsula çevrilib. Buna baxmayaraq, bazar idxaldan asılıdır. Ümumilikdə bazarla bağlı suallar çoxdur.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Keçən ilin yanvar-oktyabr aylarında Azərbaycan xarici ölkələrdən ümumilikdə 0,74 ton həcmində hisə verilmiş və mişarvari krevetka idxal edib. Krevetka idxalı əsasən Farer adaları, Qrenlandiya və Yaponiyadan həyata keçirilib. Farer adalarından idxal olunan məhsulun 1 kiloqramı 7,5 dollar (12,75 manat) olub. Ən böyük idxal payı isə Qrenlandiyaya məxsusdur. Qrenlandiya mənşəli məhsulun 1 kiloqramı isə 7,91 dollar (13,45 manat) təşkil edib. Qeyd edək ki, Azərbaycanda krevetkalar pərakəndə satış şəbəkələrində əsasən dondurulmuş 500 qr-1 kq paketlər şəklində təqdim olunur. Marketlərdə bu məhsulun qiyməti 22,50 manatdan 34,50 manata qədər dəyişir.

“Əlçatan delikates” kimi təqdim olunan krevetka Azərbaycanda artıq tanış məhsula çevrilib. Lakin bu bazarla bağlı suallar çoxdur: Azərbaycanda krevetka istehsalı varmı? Dəniz, yoxsa şirin suda yetişdirilən növlərə üstünlük verilir?

### “ƏN ÇOX KREVETKA İRANDAN GƏTİRİLİR”

Azərbaycan Balıqçılar İttifaqının rəhbəri Əfqan Əliyevin sözlərinə görə, ölkəyə ən çox krevetka İrandan gətirilir: “Mənim bildiyim sahibkarlardan biri ötən ilin noyabr ayında İrandan 3 ton pələng krevetkası gətirmişdi. Ancaq bu rəqəmlər rəsmi statistikada əksini tapmayıb. Statistik siyahıda bu ölkənin, eləcə də Çinin adının yer almaması təəccüblüdür. Adıçəkilən digər ölkələrdən idxal edilən krevetkalar isə baha başa gəlməsi səbəbindən əlçatmazdır. Yerli krevetkaya gəldikdə isə, bazarlarda xarici məhsulla müqayisədə qat-qat çox satılır. Ümumilikdə, yerli krevetka idxal olunan məhsuldan daha çoxdur və satış baxımından da təxminən 50 dəfə üstünlük təşkil edir. İl ərzində yalnız bizim qurum 400-500 kiloqram yerli krevetkanı balıq yemi məqsədilə alır. Azərbaycanın su hövzələrində bir neçə növ krevetka mövcuddur ki, onların da böyük hissəsini Xəzər krevetkası təşkil edir və bu növ ilboyu ovlana bilir. Ölkənin hava şəraiti isə su hövzələrində bioresursların ilboyu istehsalına imkan verir”.



Əfqan Əliyev

### YERLİ İSTEHSAL YOXDUR

Ə.Əliyev bildirdi ki, hazırda Azərbaycanda krevetka istehsalı həyata keçirilmir: “Bəzi ərazilərdə “katyollar” qurulur, krevetkalar kiçik vaxtlarından ovlanaraq saxlanılır. Belə nümunələrdən biri Neftçala rayonundadır. Lakin bu proses istehsal hesab edilmir. İstehsalla məşğul olmaq istəyən insanlar var, amma onların qarşısında müəyyən əngəllər mövcud olduğu üçün bu, hələlik mümkün deyil”.



### “Mövcud tələbatın qarşılanması üçün...”

“Azərbaycan Balıq İstehsalçıları və Emalçıları Assosiasiyası” İctimai Birliyinin İdarə Heyətinin sədri Zaur Salmanlı da dedi ki, artan tələbatı qarşılamaq üçün istehsal mütləqdir: “Azərbaycan dünya akvakultura bazarından kənarda qala bilməz. Krevetka hazırda dünyada ən məşhur balıq məhsullarından biridir və qlobal miqyasda istehlakı artmaqdadır. Bu da istehsalın genişlənməsini zəruri edir. Təəssüf ki, hazırda Azərbaycanda bu məhsulun istehsalı hələ də təşkil olunmayıb. Müəyyən cəhdlər olsa da, bəzi şəxslər idxal olunan məhsullar əsasında istehsal qurmağa çalışıblar. Bununla belə, texniki baxımdan ölkədə krevetka yetişdirmək mümkündür”.

## “İqtisadi baxımdan cəlbedici sayılmır”

Z.Salmanlı bildirdi ki, məhsuldan restoranlarda geniş istifadə olunur, marketlərdə isə asanlıqla tapılır. Bu baxımdan, yerli istehsalın formalaşması məqsədəuyğun olardı: “Krevetkanın yetişdirilməsi mövsümi xarakter daşımır və qış aylarında qapalı su hövzələrində də istehsal mümkündür. Bu üsulla bazardakı idxal məhsulları ilə rəqabət apara biləcək məhsul əldə etmək olar. Yerli məhsul iri ölçülü, təzə və canlı olacağı üçün alıcıların ona üstünlük verməsi mümkündür. Bu amillər yerli krevetkanın bazarda mövcud məhsulları üstələməsinə şərait yarada bilər”.

Müsahibimizin sözlərinə görə, hazırda balıqçılar Xəzər dənizindən və çaylardan krevetka tutsalar da, bu, ümumi istehlakın yalnız kiçik bir hissəsini qarşılayır: “Üstəlik, bu proses istehsal deyil, vəhşi təbiətdən ovlanma hesab olunur və məhsulun qiyməti də nisbətən baha olur. Yerli növlərin yetişdirilməsinin perspektivli hesab edilməməsi isə onların gec böyüməsi və kiçik ölçülü olması ilə izah edilir. Bu səbəbdən fermerlər üçün yerli krevetka növlərinin yetişdirilməsi iqtisadi baxımdan cəlbedici sayılmır”.

Krevetka satışı ilə məşğul olan Seymur Mamedov isə bildirdi ki, xaricdən gətirilən krevetkalar əsasən İran mənşəlidir: “Bu məhsullar iri ölçülü olur. Adətən okean və ya pələng krevetkası kimi tanınır. Yerli krevetkalar isə əsasən orta və kiçik ölçüdədir. Krevetkalar əsasən topdan şəkildə restoranlara satılır, lakin pərakəndə alıcıların da sayı az deyil. Qabığı soyulmuş və paketlənmiş krevetkalar əsasən mağazalarda təqdim olunur. Lakin bu məhsullar dad baxımından zəif, keyfiyyətinə görə isə yetişdirilmə məhsulu olduğu üçün daha süni hesab edilir. Bu səbəbdən satışda əsasən bişirilmiş və qabıqlı krevetkalara üstünlük verilir”.

S.Mamedov qeyd etdi ki, krevetkaya tələbat ümumilikdə orta səviyyədə qiymətləndirilir. Bununla belə, yerli krevetkalara tələbat daha yüksəkdir: “Yerli krevetkaların həm dad, həm də keyfiyyət baxımından üstün olduğu bildirilir. İri ölçülü krevetkalar əsasən yetişdirmə yolu ilə böyüdülür, Xəzərdən tutulan krevetkalar isə tamamilə təbii məhsul hesab olunur. Xəzər krevetkası zülalla daha zəngindir və göz sağlamlığı üçün faydalı hesab olunur”. Satıcının sözlərinə görə, hazırda bazarda qiymətlər ölçüyə görə dəyişir. Naxçıvan mənşəli iri krevetka 27 manat, Xəzərin orta ölçülü krevetkası 10 manat, Xəzərin xırda ölçülü krevetkası 4 manatdır.



Zaur Salmanlı

SOVETLƏRİN TƏQİBLƏRİNƏ İNTİHARLA ETİRAZ EDƏN SİYASİ FƏAL

# YADDAŞLARDA YAŞAYAN İSTİQLAL FƏDAİSİ



Rəhim bəy Vəkilov İstiqlal Bəyannaməsi mətninin katibi və onu imzalayanlardan biri olub. O, 1918-ci il dekabrın 7-də açılan Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin ən gənc üzvü idi.

RAFİK SƏFƏROV

Azərbaycan xalqının tanınmış ictimai-siyasi xadimlərindən biri də Rəhim bəy Vəkilovdur. Bu günədək onun həyat və fəaliyyəti haqqında ictimaiyyətə geniş məlumatlar təqdim edilməyib. R.Vəkilov haqqında yalnız Azərbaycan Xalq Cümhuriyyəti (AXC) Ensiklopediyasının ikinci cildində müəyyən məlumatlar yer alıb. R.Vəkilovun ictimai-siyasi fəaliyyətini əks etdirən bəzi arxiv materialları dövlət arxivlərində qayğı ilə qorunub saxlanılır.

**HƏLƏ MƏKTƏBDƏN FƏALLIĞI İLƏ SEÇİLİB**

R.Vəkilov 29 fevral 1897-ci ildə Qazax qəzasının Salahlı kəndində anadan olub. O, əvvəlcə ibtidai kənd məktəbində oxuyub, sonra isə təhsilini Bakı Realnı məktəbində davam etdirib. Bakı Realnı məktəbində oxuyarkən fəal həyat tərzi ilə seçilib. Şagird təşkilatının fəal üzvü olub. Sonrakı illərdə həmin şagird təşkilatı Ümumqafqaz Tələbə Təşkilatına çevrildikdən sonra Rəhim bəy də fəaliyyətini onun tərkibində davam etdirib. İlk milliyyətçi baxışları da məhz tələbə təşkilatlarında formalaşıb. O, 1916-cı ildən 9 saylı rus-tatar məktəbində müəllim işləyib.

**MÜSƏLMAN DEPUTATLARDAN BİRİ DƏ RƏHİM BƏY OLUR**

1917-ci ildə Çar Rusiyasında baş vermiş inqilabdan sonra Ümumqafqaz Tələbə Təşkilatı milli əlamətlərinə görə parçalanır və həmin təşkilatın türk qrupu Müsavat Partiysının tərkibinə daxil olur. Rəhim bəy də 1918-ci ilin əvvəllərində Müsavata üzv olaraq fəaliyyətini burada davam etdirir, siyasi işlər komissiyasının rəhbəri təyin olunur.

1917-ci ilin oktyabrında oktyabr çevrilişindən sonra bolşeviklər Rusiyada hakimiyyəti ələ keçirirlər. Bolşeviklərin çevrilişi Zaqafqaziyada rəğbətlə qarşılanmır. Nəticədə Zaqafqaziyada J.P.Qeqeçkorinin başçılığı ilə Azərbaycan, gürcü və erməni xalqlarının nümayəndələrindən ibarət Zaqafqaziya komissarlığı yaradılır. 1917-ci il noyabrın 26-28-də Rusiya Müəssislər Məclisinə seçkilər keçirilir. Məclisə Zaqafqaziyadan 34 nəfər seçilir ki, onlardan 12 nəfəri müsəlman olur. Həmin müsəlman deputatlardan biri də Rəhim bəy olur.

**MÜSƏLMAN FRAKSİYASINI YARADANLARDAN BİRİ**

Lakin yollar bağlı olduğu üçün Zaqafqaziyadan Müəssislər Məclisinə seçilmiş deputatlar Petroqrada gedə bilmirlər. 1918-ci il fevralın 14-də onlar ölkədə Zaqafqaziya Seymini yaratmağı qərara alırlar. Zaqafqaziya Seymindəki 44 azərbaycanlı nümayəndə müsəlman fraksiyası yaradır. Fraksiyaya daxil olmuş 44 azərbaycanlıdan biri də Rəhim bəy olur. Müsəlman fraksiya-sının ilk iclası M.Ə.Rəsulzadənin sədrliyi və R.Vəkilovun katibliyi ilə 16 mart 1917-ci ildə keçirilir.

R.Vəkilov əvvəl seymdəki müsəlman fraksiyasının, 1918-ci il mayın 28-dən isə Azərbaycan Milli Şurasının üzvü və katibi olur. Milli Şuranın Tiflis şəhərində 28 may 1918-ci il tarixdə keçirilmiş iclasında Azərbaycanın müstəqil dövlət elan edilməsi haqqında İstiqlal Bəyannaməsi qəbul edildi. Bəyannamənin qəbul edildiyi tarixi iclasda Həsən bəy Ağayev, Mustafa Mahmudov, Fətəli Xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyov, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanbəyov, Heybətqulu Məmmədbəyov, Mehdi bəy Hacinski, Əli Əsgər bəy Mahmudbəyov, Aslan bəy Qardaşov, Sultan Məcid Qənizadə, Əkbər Ağa Şeyxülislamov, Mehdi bəy Hacıbababəyov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlik-Aslanov, Rəhim bəy Vəkilov, Həmid bəy Şaxtaxtinskiy, Camo bəy Hacinski, Şəfi bəy Rüstəmbəyov, Xosrov Paşa bəy Sultanov, Cəfər Axundov, Məhəmməd Məhərrəmov, Cavad bəy Məlik Yeqanov və Hacı Molla Səlim Axundzadə iştirak etmişdilər.



## İstiqlal Bəyannaməsində də imzası vardı

Rəhim bəy İstiqlal Bəyannaməsi mətninin katibi və onu imzalayanlardan biri olub. O, Azərbaycan Milli Şurasının "Azərbaycan Məclisi -Məbusanının təsisi haqqında" (1918, 19 noyabr) qanununa əsasən, AXC Parlamentinin də tərkibinə daxil edilmişdi. Burada o, Müsavat fraksiyasını təmsil edirdi. Parlamentin ən gənc üzvü olan R.Vəkilov 1918-ci il dekabrın 7-də Həsən bəy Ağayevin təklifi ilə qurumun katibi seçilir.

**TƏZYİQLƏRƏ DÖZMƏYƏRƏK İNTİHAR EDİR**

"1920-ci il üçün Azərbaycan Respublikasının ünvan təqvimi" kitabında R.Vəkilovun rus dilində "Azərbaycan Respublikasının yaranma tarixi" adlı oçerki çap edilir. Həmin oçerk AXC tarixinə dair ilk ümumiləşdirici əsərlərdən biri kimi tariximizə düşür. 1920-ci ilin aprel işğalından sonra R.Vəkilov indiki Bakı Dövlət Universitetinin şərq fakültəsinə daxil olur. O, paralel olaraq Müsavatın gizli təşkilatında fəaliyyət göstərərək ziyalılar arasında iş aparır. Həmin fəaliyyətinə görə 1923-cü ilin iyun və oktyabr aylarında həbs edilir. 1924-cü ilin aprelində isə üç illik müddətə Rusiyanın Yaroslavl şəhərinə sürgün olunur. Az müddət sonra isə əfv edilərək vətənə qayıdır. 1926-cı ildə yenidən həbs edilir. 28 fevral 1927-ci il tarixdə yenidən sürgün edilir. Mübariz insan olaraq Rəhim bəy 1934-cü ildə vətəninə qayıdır və az sonra Tiflisə, oradan da müalicə üçün Borjomiyə gedir. Daha sonra Tiflisə qayıdaraq yaxın dostlarının evində yaşayır. Bu müddətdə o, hökumət orqanları tərəfindən amansız təqiblərə məruz qalır. Bu təqiblərə dözməyərək 1934-cü ildə intihar edərək həyatına son qoyur. Onun adı və xidmətləri xalqımız tərəfindən unudulmur, böyük hörmət və ehtiramla yad edilir.

# “BAHARIN ON YEDDİ ANI”NIN PLEYŞNERİ

Bəziləri Yevgeni Yevstiqneyevi dramatik rolları, bəziləri komediyaları ilə xatırlayır. O, personaj aktyoru idi və ona görə də əsasən ikinci dərəcəli rollarda oynayırdı.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Film və teatrdakı yüzdən çox rolu ilə Yevgeni Yevstiqneyev milyonlarla tamaşaçı tərəfindən sevilib. Bəziləri onu dramatik rolları, bəziləri komediyaları ilə xatırlayır. Görkəmli aktyorun istedadına çoxsaylı hekayələr, sənədli filmlər və kitablar həsr olunub. Ətrafında heç bir paxıllıq, intriqa və dedi-qodu olmayıb. O, vəfatından sonra da yaddaşlarda müstəsna səviyyəli şəxsiyyət kimi qaldı. Əgər belə olmasaydı, biz heç vaxt “Xoş gəlmisiniz, ya da qanunsuzluğa yol verilmir”, “Baharın on yeddi anı”, “Qaqrada qış axşamı”, “Mühəndis Qarinin hiperboloidi”, “Avtomobildən qorun”, “İtalyanların Rusiyadakı inanılmaz macəraları” və digər parlaq filmləri görməzdik.

### ZAVODDA MEXANİK KİMİ İŞƏ BAŞLAYIR

Musiqi duyumu və aktyorluq onda təbii olsa da, kinoya gedən yolu təsadüflə bağlı olub. O, Nijni Novqorodun Volodarski kəndində anadan olub və böyüyüb. Valideynləri fəhlə idi: Aleksandr Mixayloviç metal ustası, Mariya İvanovna isə frezer dəzgahı operatoru idi. Yevgeni altı yaşında ikən ilk dəfə itkinin ağrısını hiss edir - atası vəfat edir. Anası yenidən ərə gedir və 15 yaşında olanda ögey atasını da itirir. Yevgeni evə kömək etmək üçün məktəbi tərk etməyə məcbur olur və zavodda mexanik kimi işə başlayır.

### MEXANİKLİKDƏN AKTYORLUĞA GEDƏN YOL

Uğurlu bir təsadüf olmasaydı, bəlkə də dünya bu parlaq aktyor haqqında heç vaxt məlumat əldə edə bilməyəcəkdi. Gənc Jenya axşamlarını doğma şəhərində müxtəlif səhnələrdə çıxış edən caz orkestrində keçirirdi. Bir gün Qorki Teatr Məktəbinin direktoru Vitali Lebski gəncin istedadını görərək ona aktyorluqda özünü sınamağı təklif edir. Beləliklə, musiqi dünyası gözəl bir ifaçını itirir, kino dünyası isə böyük bir aktyor qazanır.

Moskva İncəsənət Teatr Məktəbinin rektoru Veniamin Radomyslinski aktyorun səhnədəki çıxışını görəndə onu itirməyin mümkün olmadığını anlayır. O, Yevstiqneyevi qəbul imtahanları olmadan birbaşa üçüncü kursa oxumağa dəvət edir ki, bu da unikal bir hadisə idi. O vaxt Yevgeni artıq 28 yaşında idi. Amma gənc yaşlarında olsa da, cəlbedici hesab edilmirdi. Erkən keçəlliyi ona mane olurdu. Sinif yoldaşları 20 yaşında idi və onlar üçün o, demək olar ki, yaşlı kişi sayılırdı. Ona “ata” deyirdilər. Onunla şux və yaraşıqlı Moskva gəncliyi arasında inanılmaz fərq hiss olunurdu. Bu fakt onun kino karyerası üçün zərbə idi - Yevgeniyə dərin dramatik rollar təklif olunmurdu. O, adətən komediyalarda, kiçik rollarda oynayırdı. İşə düzəlmək üçün müraciət etdiyi teatrların birində baş rejissor ondan açıq şəkildə imtina etmişdi: “Biz yalnız gəncləri qəbul edirik, siz isə keçəlsiniz, oğlan rollarını oynaya bilməzsiniz”.

### DƏRHAL İSTEDADLI KOMEDİYA AKTYORU KİMİ TANINIR

Məktəbi bitirdikdən sonra Yevgeni Vladimir Teatrında işləməyə dəvət alır və dərhal istedadlı komediya aktyoru kimi tanınır. O dövrdə Oleq Yefremov yeni Sovremennik Teatrını qurmuşdu və Yevstiqneyev ora işləməyə gəlir. Yeni teatr ona geniş imkanlar təklif edirdi. Bir sıra maraqlı və yaddaqalan rolları oynadıqdan sonra yeni aktyor truppasına qəbul olunur. 1974-cü ildə çalışdığı həmin teatr fəaliyyətinə görə Dövlət Mükafatına layiq görülür.

“Xoş gəlmisiniz, ya da icazəsiz giriş” filmində aktyor pioner düşərgəsinin direktoru Yoldaş Dinin rolundan sonra yuxudan məşhur aktyor oyanır. Filmə antisovet damğası vurulsa da, ölkə rəhbəri Nikita Xruşşovun göstərişi ilə ekranlara çıxır.

Kinoda 28 illik fəaliyyəti ərzində Yevstiqneyev 114 filmdə rol alıb. “Qaqrada qış axşamı” filmi onun həyatında xüsusi yer tutur. Filmin baş qəhrəmanı Aleksey Beqlov həm taleyi, həm də incə psixikası ilə Yevstiqneyevə oxşayırdı. Filmin sonluğunda Beqlov da Yevstiqneyev kimi infarktdan vəfat edir.





## Tamaşaçılarda rəğbət oyadan əsas personajlardan biri

“Baharın on yeddi anı” filmi ekranlara çıxanda isə aktyorun həyatında daha möhtəşəm bir səhifə açılır. Film sovet kinosunun tarixinə düşür. Tamaşaçılarda rəğbət oyadan əsas personajlardan biri də Yevstiqneyevin canlandırdığı professor Verner Pleyşner idi. Yevgeni Aleksandroviç personajın yerişinə böyük əhəmiyyət verirdi. Onun Pleyşneri hər an ifşa olunmaqdan qorxaraq başını aşağı əyərək yan-yana yeriyirdi. Filmdən sonra professorun qeyri-adi yerişi haqqında bütün tənqidçilər xoş sözlər yazırdı.

Yevstiqneyev özü haqqında belə deyirdi: “Mən bütün həyatım boyu bacarıqlarımı inkişaf etdirmişəm. Heç bir yaradıcılıq yüksəlişi və ya enişi olmayıb. Mən personaj aktyoruyam, ona görə də əsasən ikinci dərəcəli rollarda oynamışam”.

## Dedi-qodulara səbəb olan evlilik

Yevstiqneyev birinci həyat yoldaşından ayrılmışdı. İkinci həyat yoldaşı 48 yaşında vəfat etmişdi. Tələbəsi olan üçüncü həyat yoldaşı ondan 40 yaş kiçik olsa da, onlar xoşbəxt idilər. Yaşlı müəllimin tələbə ilə evlənməsinin dedi-qodulara səbəb olmasına baxmayaraq, o, şəxsi həyatında xoşbəxtliyi məhz İrina Tsivina ilə tapdı. Həyat yoldaşı onu sevgi və qayğı ilə əhatə etdi. İrina ömrünün son saatlarına qədər onun yanında idi. Aktyorun ölümündən sonra o, yenidən evləndi və vəd etdiyi kimi, dünyaya gələn oğluna Yevstiqneyevin şərəfinə Yevgeni adını verdi.

## Ölümlə bitən ürək əməliyyatı

Ömrünün son illərində Yevstiqneyev ürəyindən əziyyət çəkirdi, lakin sənətinə sədaqətlə xidmət etməkdə davam edirdi. Hər gərgin səhnədən sonra aktyor soyunma otağındakı divanda uzanıb dərmanlarını qəbul edirdi. Amma sonunda həyatın zərbələri dalbadal infarktla nəticələndi. 1 mart 1992-ci ildə Yevstiqneyev səhnədə sonuncu dəfə çıxış etdi. Səhəri gün həyat yoldaşı İrina ilə birlikdə Londona uçdu. Martın 4-də isə 66 yaşlı aktyoru orada ölümlə sonuclanan ürək əməliyyatı gözləyirdi...

Bu il böyük aktyorun 100 illik yubileyi qeyd olunacaq.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
28 FEVRAL ŞƏNBƏ 2026



# GƏNCLİK TƏCRÜBƏNİ ÜSTƏLƏDİ

Şahmat üzrə Azərbaycan çempionatında 46 şahmatçı qalib adı uğrunda mübarizə apardı. Kişilərdə 30, qadınlarda isə 16 iştirakçı gücünü sınadı.

Azərbaycan şahmatında illərdir müzakirə olunan bir sual var: yeni nəsil məsuliyyəti nə vaxt tam şəkildə üzərinə götürəcək? Mərhum Vüqar Həşimov, dünya şahmatının elitasında möhkəmlənmiş Şəhriyar Məmmədyarov və Teymur Rəcəbov, eləcə də təcrübəli Rauf Məmmədov, Nicat Abbasov, Eltac Səfərli kimi şahmatçılar nə zaman tam olaraq əvəz olunacaq? Budəfəki Azərbaycan çempionatı bu suala böyük ölçüdə cavab verdi. Məlum oldu ki, şahmatımızda yenilənmə prosesi artıq ciddi surətdə tamamlanıb. Turnir təkcə medallar uğrunda mübarizə ilə yadda qalmadı, həm də mövqelərin dəyişməsi, adların yenilənməsi və psixoloji üstünlüyün əl dəyişməsi ilə əlamətdar oldu.

### 92 MİN MANATLIQ MÜKAFAT FONDU

Azərbaycan çempionatı 6-22 fevral tarixlərində baş tutdu. Turnirdə 46 şahmatçı qalib adı uğrunda mübarizə apardı: kişilərdə 30, qadınlarda isə 16 iştirakçı gücünü sınadı. Nokaut sistemi üzrə keçirilən yarışın hər mərhələsində tərəflər iki klassik partiyada üz-üzə gəldilər. Klassik oyunlarda qalib müəyyənləşməyəndə güclünün adına tay-brekdə aydınlıq gətirildi. Yarışın ümumi mükafat fondu 92 min manat təşkil edirdi ki, bunun 62 min manatı kişilərin, 30 min manatı isə qadınların çempionatına ayrılmışdı.

Kişilərin mübarizəsində əsas favorit ənənəvi olaraq Şəhriyar Məmmədyarov idi. Təcrübəsi, yüksək reytinqi və statusu ilə o, yenə də siyahının başında yer alırdı. Onun çıxışı da gözlənildiyi kimi oldu, finala qədər plan üzrə irəlilədi. Lakin həlledici mərhələdə fərqli mənzərə ortaya çıxdı. Finalda onun rəqibi gənc şahmatçı Məhəmməd Muradlı oldu. 22 yaşlı qrossmeyster daha əvvəl iki dəfə Azərbaycan çempionluğu yaşamışdı - 2019 və 2022-ci illərdə. Lakin həmin turnirlərdə ölkə şahmatının əsas adları iştirak etmədiyindən bu qələbələr fərqli kontekstdə qiymətləndirilirdi.

## FİNAL GƏRGİNLİYİ İLƏ DİQQƏT ÇƏKDİ

Son illərdə çempionatımızın səviyyəsi kifayət qədər yüksəlib və bütün aparıcı şahmatçıların iştirakı təmin olunur. Yığma komandaların heyəti də çempionatdakı nəticələrə əsasən formalaşır. Bu da rəqabəti getdikcə artırır.

Budəfəki final qarşılaşması gərginliyi ilə diqqət çəkdi. İlk partiyanın heç-heçə bitməsi balansın qorunduğunu göstərirdi. Cavab görüşündə isə Muradlı riskə gedərək nəticəni öz xeyrinə çevirdi. O, 1,5:0,5 hesabı ilə qələbə qazandı və ölkə çempionu titulunu əldə etdi.

Bu nəticə təsadüfi sayıla bilməz. Muradlı turnir boyu sabit və hesablanmış oyun nümayiş etdirdi. Ən önəmli məqam isə psixoloji dayanıqlığı oldu. Güclü və təcrübəli rəqib qarşısında təşəbbüsü ələ alıb sonadək qoruması gənc şahmatçının yetkinliyini göstərdi.

Üçüncü yer uğrunda görüşdə isə Aydın Süleymanlı Read Səmədova qalib gələrək bürünc medal qazandı. Bu da göstərdi ki, gənc nəsil artıq epizodik deyil, sistemli şəkildə ön sıralara yüksəlir.

## QADINLARIN YARIŞINDA YENİ ÇEMPİON

Qadınların yarışında da gərgin anlar diqqət çəkdi. Final qarşılaşması Ülviyyə Fətəliyeva və Ayan Allahverdiyeva arasında baş tutdu. Hər iki şahmatçı finala qədər inamla irəliləməyi bacardı. Xüsusilə, Allahverdiyevanın yarımfinalda qalib gəlib həlledici qarşılaşmaya çıxması dramatik anlarla yadda qaldı.

21 yaşlı Ayan finalın bir addımlığında Türkan Məmmədyarova ilə üz-üzə gəldi. İlk partiyada hakimlər onun qayda pozuntusu səbəbindən məğlub hesab edildiyini elan etsələr də, Allahverdiyeva apellyasiya şikayəti verdi. Videoyazı və gedişlərin ardıcıllığı araşdırıldıqdan sonra iddia haqlı hesab olundu və partiyanın nəticəsi heç-heçə kimi rəsmiləşdirildi. Sonrakı görüşdə Ayan rəqibinə qalib gələrək finala yüksəldi.

Həlledici qarşılaşmada mübarizə sonadək davam etdi. Klassik partiyalarda qalib müəyyənləşməyincə, çempion tay-brekdə bəlli oldu. Daha dəqiq və sakit oyun nümayiş etdirən Ülviyyə Fətəliyeva 1,5:0,5 hesabı ilə qalib gəlməklə ilk dəfə Azərbaycan çempionu adını qazandı.

Bu uğur Fətəliyevanın karyerasında yeni mərhələdir, lakin o, bundan əvvəl də şahmat arenasında sözünü deməyi bacarmışdı. Ülviyyə 2024-cü ildə Avropa çempionu olaraq adını tariximizə yazdırmış, milli komandamızın liderlərindən biri kimi son dünya çempionatında həm gümüş medal qazanmış, həm də birinci lövhədə şəxsi göstəricidə "qızıl"a sahib çıxmışdı.





## FAVORİT STATUSU ARTIQ QALİB GƏLMƏYƏ ZƏMANƏT VERMİR

Çempionatda bir daha təsdiqləndi ki, favorit statusu artıq qalib gəlməyə zəmanət vermir. Turnirin gedişi boyunca təcrübəli və yüksək reytinqə sahib şahmatçılarla gənclərin qarşılaşmaları bunun açıq sübutu oldu. Cavan "iti zəka sahibləri" kritik məqamlarda risk etməyə, təşəbbüsü ələ alıb təcrübəli rəqiblərin üstünlüklərini neytrallaşdırmağa hazır olduqlarını nümayiş etdirdilər.

Rəqabət balansı da artıq əvvəlki illərdən fərqlidir. Azərbaycan şahmatı uzun illər əsasən fərdi liderlərin performansına söykənirdi. Budəfəki turnir göstərdi ki, yeni nəsil artıq epizodik deyil, sistemli şəkildə ön sıralara yüksəlir. Yarış boyu həm kişilərin, həm də qadınların oyunlarında bir-birinə yaxın nəticələr, gözlənilməz qaliblər və tay-brek səhnələri bunun əyani sübutu oldu.

Bəs bu yenilənmə beynəlxalq arenaya nə dərəcədə daşına biləcək? Azərbaycan şahmatının potensialı açıq şəkildə görünür, lakin indi əsas məsələ bu potensialın sərhədləri aşmasıdır.